10 fevral 2023 №11 (1980)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Azərbaycanlı bacı-qardaşlarımız bizi çətin günümüzdə tək qoymadılar”



Biz Qarabağda azərbaycanlı qardaşlarımızla necə bərabər idiksə, azərbaycanlı bacı-qardaşlarımız da bu çətin günümüzdə bizimlə bərabərdir. Onlar bizi bu çətin günümüzdə tək qoymadılar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bunu fevralın 9-da Qaziantep hava limanında azərbaycanlı jurnalistlərə açıqlamasında bildirib.

Ərdoğan deyib ki, Bakıda və Azərbaycanın digər bölgələrində Türkiyədə zəlzələdən zərərçəkənlər üçün yardımların toplanmasından da xəbəri var. “İlham qardaşıma, Mehriban xanıma öz adımdan, millətim adından çox-çox təşəkkür edirəm. Bütün millətim adından Azərbaycan dövlətinə, xalqına minnətdarlıqlarımızı bildiririk. Biz bu gün də bərabərik, ölənə qədər də bərabər olacağıq, inşallah. Bizim şüarımız “Bir millət – iki dövlət”dir. Bu şüarla da yorulmadan yolumuza davam edəcəyik”, – deyə o vurğulayıb.

Qeyd edək ki, zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Qazintep hava limanında qardaş ölkəyə humanitar yardım aparan Heydər Əliyev Fondunun əməkdaşları ilə də görüşüb.

## “Bütün varlığımızla Türkiyə ilə bir yerdəyik...”

### “Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir”

Prezident İlham Əliyev fevralın 8-də Türkiyənin Bakıdakı səfirliyində olub, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib.

Prezident səfirlikdə açılan matəm kitabına ürək sözlərini yazıb. Sonra dövlət başçısı Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı ilə söhbət edib.

“Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə”, – deyə İlham Əliyev bildirib.

Dövlət başçısı vurğulayıb ki, dəhşətli zəlzələ bizi çox sarsıdıb. Hər birimizə böyük mənəvi əzab verir: “Biz qardaşlarımızın dərdinə şərikik. Yaralılara tezliklə Allahdan şəfa diləyirik. Mən əziz qardaşım, cənab Prezidentə telefonla başsağlığı vermək üçün zəng edəndə dedim ki, bütün varlığımızla biz Sizinlə bir yerdəyik və bilirsiniz ki, durmadan heyətlər göndərilir. Eyni zamanda, həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir.

Bilirsiniz ki, Azərbaycan xalqı könüllü olaraq qardaşlara, öz doğma qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var onu gətirir. Yəni, kimi yorğan gətirir, kimi döşək gətirir, kimi gödəkcə gətirir. Kimin imkanı nəyə çatırsa, onu da əsirgəmir. Biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir.



Bizim ictimai təşkilatlarımız da öz dəstəyini göstərirlər. Heydər Əliyev Fondu artıq böyük təşəbbüsə start verdi. Fondun bütün imkanları, Fondun nəzdində çalışan bütün insanlar artıq bu yardım kampaniyasına qoşulmuşlar.

Mənə verilən məlumata görə, özəl şirkətlər artıq fəaliyyətə keçiblər və həm maddi yardım, eyni zamanda, texniki yardım göstərməyə başlamışlar. Mənim göstərişimlə bizim ən böyük şirkətimiz SOCAR öz dəstəyini verməyə başlayır. Bilirsiniz ki, SOCAR-ın Türkiyədə böyük fəaliyyəti, böyük imkanları var. Bu şirkət, eyni zamanda, Türkiyə şirkətidir və əlində olan bütün imkanlarla yardım etməyə çalışır və çalışacaq.

Bilirəm ki, bizim dövlət qurumlarının nümayəndələri də öz təşkilatları çərçivəsində humanitar yardımın təşkilində fəaldırlar və bunu biz ancaq alqışlaya bilərik. Yəni, bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır”.

Dövlət başçısı bütün yardım məsələlərinin bir mərkəzdən idarə olunması üçün göstəriş verdiyini deyib: “Prezident Administrasiyasının rəhbərinə göstəriş verildi. O cümlədən bizim xəstəxanalarda yaralı qardaş-bacılarımızın müalicəsi üçün bütün şərait var. Həm Bakıda, digər şəhərlərdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında artıq çarpayılar ayrılıb və əgər ehtiyac olarsa, biz xəstələri gətirməyə də hazırıq.

Paralel olaraq, böyük bir qrup könüllü artıq yola düşür. Bizim böyük könüllü qruplarımız var – həm Heydər Əliyev Fondunun nəzdində fəaliyyət göstərən könüllülər, həm “ASAN könüllüləri”, yəni, onlar hər zaman Azərbaycanda bədbəxt hadisə baş verdikdə, - məsələn, bizdə də Şamaxı, Ağsu, İsmayıllıda zəlzələ baş verdikdə, - ilk yardıma yetişən də onlar olmuşlar. Onlar indi hərəkətdədir, yoldadırlar”.

**davamı səh. 2-də**

## Fəlakətin 4-cü gününün acı tablosu: 17 min ölü

### Türkiyə 95 ölkədən yardım təklifi alıb

Türkiyədə fevralın 6-da baş vermiş dəhşətli zəlzələnin doğurduğu tələfatın acı tablosu hər ötən gün daha da böyüyür.

Fevralın 9-u axşama doğru açıqlanan rəsmi məlumata görə, zəlzələ nəticəsində ölənlərin sayı 17 mini ötüb. Yaralananların sayı 70 mindən çoxdur. Fəlakət zonasında 6444 bina dağılıb.

Zəlzələ zonasında axtarış-xilasetmə 60-dək ölkədən 6500-ə yaxın mütəxəssis çalışır. Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu fevralın 9-da jurnalistlərə açıqlamasında deyib.

“Bu gün bütün dünyadan dəstək gördük. Beynəlxalq ictimaiyyətə də təşəkkür edirik. 95 ölkə və 16 beynəlxalq təşkilatdan yardım təklifi almışıq. Bir çox ölkə xilasedicilərini, səhra xəstəxanalarını, tibbi personalını ölkəmizə göndərir. 9 fevral etibarilə 56 ölkədən 6479 şəxsi heyət zəlzələ baş verən bölgədə fəaliyyət göstərir”, – deyə o bildirib.

Mövlud Çavuşoğlu qeyd edib ki, fevralın 9-da daha 19 ölkədən xilasedicilər Türkiyəyə gəlib.

Anadolu Agentliyi Türkiyəyə xilasetmə qrupları göndərən ölkələrin siyahısını açıqlayıb. Siyahıda ilk sırada 725 nəfərlik heyət göndərən Azərbaycan yer alır. İkinci yerdə İsraildir – 450 nəfər. Fransadan 204, Hindistandan 201, ABŞ-dan 159, Macarıstandan 156, Rusiyadan 150, Meksikadan 145, Bosniya və Herseqovinadan 104, Gürcüstan, Özbəkistan və Salvador – hərəsindən 100, daha 50-dək ölkədən müxtəlif sayda xilasetmə qrupları gəlib.

Azərbaycan FHN-in xilasediciləri zəlzələdən ciddi zərər görmüş Kahramanmaraş ərazisində dağıntılar altından 9-u uşaq olmaqla 44 nəfəri sağ çıxarıblar.

## “Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı 2023” ilinin Tədbirlər Planı təsdiq edilib

Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan olunması ilə bağlı Tədbirlər Planı təsdiq edilib.

Bu barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı fevralın 7-də Baş nazir Əli Əsədov tərəfindən imzalanıb.

Sərəncamla planda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üzrə əlaqələndirici orqan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi müəyyən edilib. Sərəncamın icrasına nəzarət Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinə həvalə edilib.




Xatırladaq ki, 2022-ci il martın 31-də Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasının iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilib.

Prezident İlham Əliyev 2022-ci il dekabrın 6-da “Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında” sərəncam imzalayıb.

Sərəncamda vurğulanır ki, memarlıq və şəhərsalma sənətinin 270 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün Türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə, türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcək.

**davamı səh. 3-də**

## “Unudulmaz musiqisi, mahnıları ilə əbədi yaşayacaq...”




**səh. 2**

## Qardaşı darda qoymayan qardaş

Türkiyədə baş vermiş zəlzələdə zərərçəkənlərə dəstək məqsədilə fevralın 8-də axşam saatlarında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Fond tərəfindən qardaş ölkəyə humanitar yardımla dolu təyyarə yola salınıb. Təyyarə ilə 36 ton yardım – müxtəlif dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, həmçinin isti geyimlər və çadırlar aparılıb.

Azərbaycandan Türkiyəyə qardaş köməyində aidiyyəti qurumlarla bərabər bütün xalq yaxından iştirak edir. Fevralın 7-də Bakıda əhali tərəfindən başladılan yardım toplama kampaniyası ayın 8-də daha da genişlənib. Yardım kampaniyası Türkiyənin Azərbaycandakı Səfirliyi və Heydər Əliyev Fondu tərəfindən koordinasiya edilir.

Türkiyə səfirliyi tərəfindən təşkil olunan kampaniya çərçivəsində yardım Heydər Əliyev adına İdman Kompleksində qəbul olunur. Heydər Əliyev Fondu tərəfindən yardım kampaniyası Əl Oyunları Sarayında keçirilir.



Fevralın 8-də Bakıda Türkiyəyə dəstək məqsədilə yaradılmış “Qardaş köməyi” platformasının təqdimatı da keçirilib. Platforma “Bakı KOB evi”ndə Türkiyənin Azərbaycandakı Səfirliyi ilə əlaqələndirilməklə, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə, Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin Azərbaycan şöbəsi (MÜSİAD Azərbaycan), Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB), Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi (TÜİB), eləcə də bir sıra ictimai birliklərin dəstəyi ilə təsis olunub.

**davamı səh. 2-də**

### “Gəncliyin səsi” festivalı başa çatdı



**səh. 3**

### Hüseyn Cavid haqqında iki biblioqrafik nəşrin təqdimatı keçirilib

**səh. 3**

### Hər teatr öz tamaşaçısını tanımasa...



**səh. 4**

## "Bütün varlığımızla Türkiyə ilə bir yerdəyik..."

*əvvəli səh. 1-də*

Prezident əmin olduğunu bildirib ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq: "Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir. Hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır. Yenə də deyirəm, həm Türkiyədən, həm Azərbaycandan, həm digər ölkələrdən gələn xilasedicilər çox böyük iş görürlər. Əlbəttə ki, burada əsas yük və mənəvi yük Türkiyə hökumətinin üzərinə düşür. Mənim qardaşım hörmətli Prezident dərhal bütün göstərişləri verdi, bütün nazirləri fəlakət zonalarına göndərmişdir və tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonra, təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir.

Bir daha deyirəm, keçmiş olsun, bütün həlak olanlara Allah rəhmət eləsin, yaxınlarına Allah səbir versin və təbii fəlakətlər olur, heç kim bundan sığortalı deyil. Amma Türkiyə dövlətinin operativ və çevik addımları bir daha göstərdi ki, insan amili Türkiyə hökuməti üçün əsas məsələdir və bu ağır sınaq, eyni zamanda, Türkiyənin gücünü bir daha bütün dünyaya göstərəcək. Bu, qardaş xalqımızı sarsıtmayacaq, Türkiyə dövlətinin iradəsinə təsir etməyəcək. Türkiyə dövləti güclü dövlətdir və bu fəlakətlə də mübarizədə öz gücünü göstərir".

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı səfirliyi ziyarət etməsinə və söylədiyi sözlərə görə Prezident İlham Əliyevə təşəkkür edib: "Biz bilirik ki, qardaş Azərbaycan ilk dəqiqədən etibarən Sizin tapşırığınızla səfərbər olmuşdur. Təkcə Fövqəladə Hallar Nazirliyi ilə deyil, bütün qurumları, cəmiyyətləri, xalqı ilə səfərbər olmuşdur. Ürəkləri bizim acımızı yüngülləşdirmək üçün döyünmüşdür. Biz bunun şahidi olduq, görürük. Çox təşəkkür edirik, sağ olun.

Həqiqətən çox böyük zəlzələ oldu. Türkiyə tarixində ilk dəfə lokal olmayan zəlzələ bizə böyük acı verdi. Ondan çox şəhərə, on milyondan çox insanımıza təsir etdi, itkilərimiz hər gün artır. Allah millətimizə səbir versin və bir daha bizə belə böyük acı yaşatmasın, inşallah.

Hörmətli cənab Prezident, çox təşəkkür edirəm. Həqiqətən Azərbaycan bir ürək olmuşdur. Xalqımız gücü nəyə çatırsa yardım edir. Yardım üçün çalışan insanların zəhməti sayəsində hazırda yük maşınları yola çıxıb. Həqiqətən minnətdarıq. Bu gün Milli Məclisin sədri hörmətli Sahibə xanım, hörmətli Baş nazir Əli Əsədov və iqtisadiyyat naziri Mikayıl Cabbarov zəng etdilər. Sizin tapşırığınızla qurumlar istər daşıma, istərsə də generator, transformator, xəstəxana ləvazimatlarına ehtiyacla bağlı maraqlanırlar. Biz də onlarla koordinasiya şəraitində işləyirik.

Yaralarımızı sağaltmaq üçün dəstəyinizə görə çox sağ olun. Biz bilirik ki, qardaşıq və bunu ürəkdən yaşayırıq, hiss edirik".

## Aleksandr Şarovski "Prezidentin fəxri diplomu" ilə təltif edilib

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının baş rejissoru, Xalq artisti Aleksandr Şarovski "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.



Dövlət başçısı İlham Əliyev fevralın 9-da bununla bağlı sərəncam imzalayıb.

Xalq artisti Azərbaycanda teatr sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Fevralın 10-da Aleksandr Şarovskinin 75 yaşı tamam olur. Aktyor, rejissor kimi tanınan sənətkar teatrda zəngin yaradıcılığı ilə yanaşı, filmlərdə, televiziya tamaşalarında maraqlı rollar oynayıb. Həmçinin fəal ictimai xadimdir, Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəridir. 2008-ci ildə Azərbaycanın "Şöhrət", 2018-ci ildə "Şərəf" ordeni ilə təltif edilib.

Onu da qeyd edək ki, 10-11 fevral tarixlərində Akademik Rus Dram Teatrında A.Şarovskinin 75 illik yubileyi münasibətilə hazırlanmış "Kral" Benya və başqaları" tamaşasının premyerası olacaq. İsaak Babel və Şolom Aleyxemin əsərləri əsasında səhnələşdirilən tamaşaya yubilyar özü quruluş verib.

Aleksandr Şarovskini əlamətdar yubileyi və dövlət təltifi münasibətilə təbrik edirik.

## Dövlət Turizm Agentliyinin səkkiz regional idarəsi yaradılıb

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin səkkiz regional turizm idarəsi olacaq. Prezident İlham Əliyev fevralın 8-də bununla bağlı fərman imzalayıb.

Fərmana əsasən, Dövlət Turizm Agentliyinin aşağıdakı regional turizm idarələri yaradılıb: Bakı-Abşeron Regional Turizm İdarəsi; Gəncə Regional Turizm İdarəsi; Şəki Regional Turizm İdarəsi; Lənkəran Regional Turizm İdarəsi; Mingəçevir Regional Turizm İdarəsi; Quba Regional Turizm İdarəsi; Qarabağ Regional Turizm İdarəsi; İsmayıllı Regional Turizm İdarəsi.

Dövlət Turizm Agentliyinin işçilərinin say həddi cəmi 151 ştat vahidi olmaqla, Agentliyin Aparatı üzrə 63 ştat vahidi, regional turizm idarələri üzrə 88 ştat vahidi müəyyən edilib.

## Dini qurumlara maliyyə yardımı ayrılıb

Prezident İlham Əliyev fevralın 8-də Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə cəmiyyətdə etnik-dini müxtəlifliyin qorunması və multikultural dəyərlərin daha da inkişaf etdirilməsi məqsədilə dini qurumlara 2023-cü il üzrə aşağıdakı məbləğdə maliyyə yardımı ayrılıb: Qafqaz Müsəlmanları İdarəsi – 1 milyon manat; Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Bakı şəhəri Dağ yəhudiləri dini icması, Avropa yəhudilərinin Bakı dini icması, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası, Azərbaycan Respublikasının Alban-udi xristian dini icması – hər birinə 350 min manat. Həmçinin digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350 min manat ayrılıb.

## "Unudulmaz musiqisi, mahnıları ilə əbədi yaşayacaq..."

### Bakıda böyük bəstəkar Tofiq Quliyevin abidəsinin açılışı olub

Tofiq Quliyevin əsərləri bizim böyük sərvətimizdir. Bu əsərlər ölməz əsərlərdir, bu gün də səslənir, bundan sonra da uzun illər ərzində səslənəcək. Çünki bu əsərlərin mahiyyətində həm Tofiq Quliyevin istedadı, eyni zamanda, Azərbaycan xalqına, doğma Bakı şəhərinə olan məhəbbəti dayanır.

Prezident İlham Əliyev bu sözləri fevralın 8-də Bakı şəhərində (keçmiş "Bakı" mehmanxanasının yerində salınmış parkda) görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevin (1917-2000) abidəsinin açılışında çıxış edərkən deyib.

Dövlət başçısı vurğulayıb ki, şəhərimizin mərkəzində ucaldılan bu abidə Azərbaycan xalqının dahi bəstəkarı Tofiq Quliyevin xatirəsinə olan hörmətinin əlamətidir: "Həqiqətən Tofiq Quliyevin əsərləri Azərbaycan mədəniyyət aləmində bir inqilab etmişdir. Tofiq Quliyev həm görkəmli bəstəkar, həm Azərbaycanda caz sənətinin banisi də adlandırıla bilər. Eyni zamanda, böyük mədəniyyət xadimi Tofiq Quliyev Azərbaycan xalqının sevgisini qazanmışdır".

Prezident qeyd edib ki, Tofiq Quliyev öz xalqına çox bağlı idi, onun Azərbaycan, Bakı haqqında əsərləri bunu göstərir. Eyni zamanda, onu tanıyanlar yaxşı bilirlər ki, çox gözəl insan, gözəl ziyalı idi, sözün əsl mənasında, böyük mədəniyyət xadimi idi və öz fəaliyyəti, öz əsərləri, Azərbaycanın ictimai həyatındakı rolu ilə tarixdə öz layiqli yerini tutub.

Prezident diqqətə çatdırıb ki, Tofiq Quliyevin xatirəsi əbədiləşdirilib. Şəhərimizin küçələrindən birinə, musiqi məktəbinə onun adı verilib. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə Tofiq Quliyevə Azərbaycanın ovaxtkı ən ali ordeni olan "İstiqlal" ordeni verilmişdi.

"Atam Heydər Əliyevi Tofiq Quliyevlə sıx dostluq əlaqələri bağlayırdı. Onlar onilliklər ərzində bir-birinə böyük hörmət göstərən insanlar idi. Baxmayaraq ki, Heydər Əliyev Azərbaycanın ovaxtkı Kommunist Partiyasının rəhbəri idi, ondan sonra müstəqil Azərbaycanın Prezidenti idi, Tofiq Quliyev isə ömrü boyu siyasətdən uzaq bir insan idi. O, sadəcə olaraq, öz yaradıcılığı ilə Azərbaycana həm sovet dövründə, həm müstəqillik dövründə o qədər böyük töhfə vermişdi ki, hamımız, hətta onu tanımayanlar da onun obrazını özümüz üçün çox əziz və yaxın tuturduq. Atam isə onu yaxından tanıyan insan kimi bilirdi ki, Tofiq Quliyev nə qədər böyük insani keyfiyyətlərə malik idi.

Onların dostluğu çox təbii idi, səmimi idi, təmənnasız idi, əsl dostluq idi. Tofiq Quliyevin 80 illik yubileyində Ulu öndər Heydər Əliyev məşhur sözləri demişdir, yəqin ki, hamımız o sözləri xatırlayırıq – biz hamımız dünyadan gedəcəyik, ancaq Tofiq Quliyevin musiqisi daim yaşayacaqdır. Artıq o gündən 26 il keçib və nə qədər dəqiq, həqiqətə uyğun sözlərdir, indi biz bunu bir daha görürük. Heç birimizdə şübhə yoxdur ki, əsrlər keçdikcə bu unudulmaz musiqi, bu mahnılar, Azərbaycan xalqının musiqi istedadını əyani şəkildə göstərən əsərlər yaşayacaq, bizi və sonrakı nəsilləri sevindirəcək", – deyə İlham Əliyev bildirib.



***

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli, Xalq artisti, görkəmli bəstəkar Polad Bülbüloğlu, Azərbaycan caz musiqisinin veteranlarından Əməkdar incəsənət xadimi Rafiq Seyidzadə çıxış edərək paytaxtımızda Tofiq Quliyevin abidəsinin ucaldılmasını həm böyük musiqiçinin xatirəsinə, həm də ümumilikdə Azərbaycan mədəniyyətinə, incəsənətinə diqqət və qayğının nümunəsi kimi yüksək qiymətləndiriblər. Vurğulanıb ki, son illər Bakıda Bülbülün, Rəşid Behbudovun, Qara Qarayevin və Fikrət Əmirovun heykəllərinin ucaldılması bunun göstəricisidir.

Tofiq Quliyevi dahi bəstəkar, eyni zamanda görkəmli pianoçu, ictimai xadim, pedaqoq kimi xarakterizə edən Fərhad Bədəlbəyli onunla bağlı xatirələrini bölüşüb.

Polad Bülbüloğlu deyib: "1960-cı illərdə Tofiq müəllim filarmoniyanın bədii rəhbəri və direktoru idi. Biz gənc bəstəkar idik, o, bizə çox kömək edirdi, bizim əsərlərimizi alırdı, yeni, maddi yardım edirdi, bizə yol göstərirdi, tövsiyələrini verirdi. Onun mahnıları ölməzdir, ona görə ki, onlar insanın daxilindən, qəlbindən, saflığından gəlir. Ona görə onun mahnılarını milyonlarla insan sevir və burada deyildiyi kimi, bu mahnılar, onun əsərləri daim yaşayacaqdır. Ona görə ki, o, insan kimi də gözəl insan idi və böyük musiqiçi idi, böyük bəstəkar idi, böyük pianoçu idi".

Polad Bülbüloğlu Tofiq Quliyevin Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərliyi, musiqi təşkilatçısı kimi fəaliyyətini də yada salıb.

Tofiq Quliyevin qızı Lalə Quliyeva atasının xatirəsinə göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə ailələri, doğmaları adından təşəkkür edib. Qeyd edib ki, Bakıda küçə, paytaxtın ən yaxşı musiqi məktəblərindən biri Tofiq Quliyevin adını daşıyır, Fəxri xiyabanda məzarüstü abidəsi və yaşadığı evin divarında barelyefi qoyulub. Heydər Əliyev Fondu tərəfindən bəstəkarın 100 illik yubileyi ilə bağlı yaradıcılıq irsinin bərpası və qorunub saxlanılması istiqamətində çox böyük iş görülüb. Əsərlərinin nəfis tərtibatda not və audioyazıları, kitablar nəşr olunub.

Sonra Prezident İlham Əliyev Tofiq Quliyevin ailə üzvləri, mədəniyyət və incəsənət xadimləri ilə söhbət edib. Tofiq Quliyevin abidəsi önündə xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, Tofiq Quliyevin abidəsi Prezident İlham Əliyevin 20 may 2021-ci il tarixli sərəncamına əsasən ucaldılıb. Abidənin müəllifi heykəltəraş Tural Rzaquliyevdir.

## Qardaşı darda qoymayan qardaş

*əvvəli səh. 1-də*

Fövqəladə Hallar Nazirliyinin yaydığı məlumata görə, fevralın 6-7-də və ayın 8-də günün birinci yarısında Azərbaycandan Türkiyəyə 7 təyyarə yola salınıb, həmçinin avtomobil karvanı göndərilib. Buraya xilasetmə işlərində istifadə olunan ləvazimatlar, generatorlar, nasos stansiyaları, avtomobillər, həmçinin modul səhra hospitalları, tibbi avadanlıq, təxirəsalınmaz yardım vasitələri, çadırlar, yataq dəstləri və s. habelə zərər çəkmiş əhali üçün humanitar yardım daxildir. Ümumilikdə, fevralın 8-nə olan məlumata görə, FHN-in 725 nəfərlik şəxsi heyəti Türkiyəyə göndərilib. Onlardan 41 nəfəri həkim və texniki işçidir.

***

Paytaxtla yanaşı, bölgələrimizdə də qardaş ölkəyə yardım aksiyaları təşkil olunub. Zəlzələdən əziyyət çəkən qardaşlarımıza dəstək məqsədilə fevralın 8-də Naxçıvandan Türkiyəyə ilkin olaraq humanitar yardımdan ibarət 12 ədəd TIR yola salınıb.





Daha bir neçə TIR-ın yola salınması istiqamətində hazırlıq işləri görülür.

Gəncə sakinləri də qardaş ölkəyə yardım kampaniyasına fəal qoşulublar. Şəhər sakinləri axın-axın yardım toplama məntəqəsinə gəlir, gətirdikləri əşyaları aidiyyəti üzrə məsul şəxslərə, könüllülərə təhvil verirlər.

Lənkəran və Masallı sakinləri də zəlzələdən zərərçəkən türkiyəli qardaşlarımıza yardım aksiyasına dəstək olurlar. Hər iki rayonda yardımların toplanılması üçün xüsusi məntəqələr yaradılıb. Məntəqələr səhər saat 9-dan axşam saat 20-yə kimi fəaliyyət göstərir.

Zaqatalalılar qeyri-sabit, qarlı-yağışlı hava şəraitinə baxmayaraq, fevralın 8-də səhər saatlarından etibarən Mədəniyyət Mərkəzində təşkil olunan yardım toplama məntəqəsinə axın edir. Gətirdikləri əşyaları aidiyyəti üzrə məsul şəxslərə təhvil verirlər. Aksiyada rayonda yaşayan müxtəlif xalqların nümayəndələri də fəallıq göstərirlər.

Xaçmazda ikisi rayon mərkəzində olmaqla, ümumilikdə 4 yerdə könüllü yardım toplama məntəqələri fəaliyyət göstərir. Xaçmazda toplanan yardımlar çeşidlənərək yük maşınları ilə Bakıya yola salınır.

İmişlidə təşkil olunan aksiyaya qoşulmaq istəyən vətəndaşlar üçün rayon Mədəniyyət Mərkəzində qərargah yaradılıb. Artıq fevralın 8-də səhər saatlarından başlayaraq İmişli sakinləri imkanları çatan qədər geyim dəstləri və əşyalarla axın-axın qərargaha üz tuturlar.

Türkiyəyə yardım aksiyaları ölkəmizin digər bölgələrində də davam edir.

## Türkiyədən Azərbaycana 395 nəfər yola salınıb

### Zəlzələdə 4 nəfər Azərbaycan vətəndaşı həlak olub...

Türkiyədə fevralın 6-da baş verən zəlzələdə zərər çəkmiş Azərbaycan Respublikası vətəndaşlarının təxliyə prosesi davam edir.

Fevralın 8-də 190 nəfər Azərbaycan vətəndaşı və onların yaxın ailə üzvləri olan xarici ölkə vətəndaşları Türkiyənin Qaziantep, Kahramanmaraş, Adana və Hatay vilayətlərindən yola çıxan avtobuslarla Azərbaycana yola salınıb.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında bildirilir. Qeyd olunur ki, zəlzələ baş verən gündən etibarən indiyə qədər ümumilikdə 9 avtobusla 395 nəfər Azərbaycana yola salınıb. Onlardan 183 nəfər artıq Azərbaycan ərazisindədir.



Əlavə olaraq, Qaziantep və Adanadan çıxacaq avtobuslarla vətəndaşlarımızın təxliyəsi planlaşdırılır və bunun üçün müvafiq tədbirlər həyata keçirilir.

XİN zəlzələ nəticəsində həlak olan Azərbaycan vətəndaşları haqqında 9 fevral tarixinə olan məlumatı da diqqətə çatdırıb. Bildirilir ki, 4 nəfər Azərbaycan Respublikası vətəndaşının – 1980-ci il təvəllüdlü Bünyatova Nailə Aydın qızı, 1973-cü il təvəllüdlü Məmmədova (Ökten) Rəna Xudaverdi qızı, 1975-ci il təvəllüdlü Məmmədova Sevinc Eldar qızı və 1976-cı il təvəllüdlü Karlı Leyla Vahid qızının vəfatı barədə məlumat mövcuddur. Vəfat edən şəxslərin yaxınları ilə əlaqə saxlanılıb. Karlı Leyla Vahid qızının cənazəsi ailəsi tərəfindən Türkiyədə dəfn ediləcək, digər 3 nəfərin cənazəsinin Azərbaycana gətirilməsi istiqamətində müvafiq tədbirlər görülür. Allah rəhmət eləsin.

# "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı 2023" ilinin Tədbirlər Planı təsdiq edilib

## 17 bənd üzrə tədbirlər mart ayından dekabr ayınadək davam edəcək

əvvəli səh. 1-də

Sərəncamda Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirmək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılıb.

Qeyd edək ki, 2022-ci ilin 9 dekabrında Bursa şəhərində "Türk dünyasının mədəniyyət paytaxtı" ilinin rəsmi bağlanış mərasimi keçirilib. Mərasimdə "mədəniyyət paytaxtı"nın simvolu Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş tərəfindən Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimova təqdim edilib.

Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planı 17 bənddən ibarətdir. Tədbirlərin 2023-cü ilin mart ayından dekabr ayınadək davam etməsi nəzərdə tutulur.

Mədəniyyət Nazirliyi, həmçinin digər aidiyyəti qurumlar tərəfindən icra olunacaq tədbirlərlə yanaşı, TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyası ilə birgə layihələr də həyata keçiriləcək. Həmçinin il ərzində Şuşada TÜRKSOY-un bir sıra ənənəvi tədbirlərinin də keçirilməsi nəzərdə tutulub.

***

**1.** "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı 2023" ilinin rəsmi açılışı – 2023-cü il mart (icraçı orqanlar: Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**2.** "Xarıbülbül" VI Beynəlxalq Folklor Festivalının keçirilməsi – 2023-cü il may (Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).




**3.** "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" ili ilə bağlı internet resurslarının və xatirə materiallarının hazırlanması: "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı 2023" ili ilə əlaqədar poçt markaları və xatirə nişanı; Şuşa şəhərinin elektron xəritəsi və mobil tətbiqi; "Türk dünyasının mədəniyyət paytaxtı – Şuşa" portalı – 2023-cü il ərzində (Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**4.** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun təşkili və bu çərçivədə: Beynəlxalq Türk Akademiyası ilə birgə Türk dünyasında ortaq mədəni irsin, tarix-memarlıq abidələrinin qorunması, bərpası və tanıdılmasına həsr olunmuş tədbir; TÜRKSOY-a üzv ölkələrin UNESCO Milli Komissiyalarının 9-cu Toplantısı; Türk dünyasının mədəni marşrutu layihəsinin təqdimatı; Türk dünyası mədəniyyət paytaxtlarının Şuşa şəbəkəsinin yaradılması və ilk görüşü; TÜRKSOY Muzeylər Birliyinin toplantısı – 2023-cü il may-iyun (Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi, Elm və Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Əqli Mülkiyyət Agentliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**5.** Türk dünyasının tanınmış şair və yazıçılarının iştirakı ilə ədəbi-bədii tədbirlər: Vaqif poeziya günləri çərçivəsində TÜRKSOY-a üzv ölkələrin şairlərinin görüşü; Mir Möhsün Nəvvab Qarabağinin 190 illiyinə həsr olunmuş sərgi və "Mir Möhsün Nəvvab Qarabağinin silah kolleksiyası" adlı kitab-kataloqun təqdimatı; "Məclisi-üns" ədəbi məclisinin təşkili – 2023-cü il iyul-sentyabr (Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**6.** TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyası ilə birgə layihələrin keçirilməsi – 2023-cü il ərzində (Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**7.** Şuşada TÜRKSOY fotoqraflar və rəssamlar düşərgəsi – 2023-cü il ərzində (Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**8.** Şuşa şəhərində beynəlxalq uşaq yaradıcılıq festivalının keçirilməsi – 2023-cü il iyun (Elm və Təhsil Nazirliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**9.** "Wonderland Şuşa 2023" beynəlxalq skaut düşərgəsi – 2023-cü il ərzində (Gənclər və İdman Nazirliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**10.** "Şuşa yaradıcılıq emalatxanası" beynəlxalq gənclər düşərgəsi – 2023-cü il ərzində (Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**11.** Türk dünyası diaspor gənclərinin görüşünün təşkili – 2023-cü il sentyabr (Diasporla İş üzrə Dövlət Komitəsi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).




**12.** TÜRKSOY Media Mükafatının (2022-ci ilin yekunlarına dair) təqdimatı – 2023-cü il ərzində (Medianın İnkişafı Agentliyi, Mədəniyyət Nazirliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**13.** TÜRKSOY Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbəti iclasının keçirilməsi və mədəni tədbirlərin təşkili: "Four seasons of Shusha" layihəsi çərçivəsində ilin dörd fəslində xarici fotoqraflar tərəfindən Şuşada lentə alınmış fotolardan ibarət sərgi; Türk dünyası musiqiçilərindən ibarət yığma orkestrin konserti – 2023-cü il oktyabr (Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**14.** Türk dünyası xalqlarının adət və ənənələrini özündə əks etdirən tədbirlər: Türk dünyası xalqlarına məxsus qədim idman növlərinin nümayiş etdirilməsi; Türk dünyası xalqlarının kulinariya günlərinin keçirilməsi; Türk dünyası dövlətlərinin aktiv və mədəni turizm sahəsində səyahətçi, bloger və digər şəxslərin Şuşaya səfərlərinin təşkili – 2023-cü il ərzində (Gənclər və İdman Nazirliyi, Dövlət Turizm Agentliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**15.** "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" ili çərçivəsində beynəlxalq konfrans, elmi seminar və digər tədbirlərin keçirilməsi: "Türk dünyası: ortaq tarixi-mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış" mövzusunda beynəlxalq konfrans; "Əhməd bəy Ağaoğlu və Türk dünyası" mövzusunda beynəlxalq konfrans; "Şuşa Türk dünyası tarixində" mövzusunda beynəlxalq konfrans; "Orta əsr mənbələrində və müasir dövr tədqiqatlarında Qarabağ və Şuşa" mövzusunda elmi seminar; "Xarıbülbül əfsanəsi" sənədli filminin təqdimatı – 2023-cü il ərzində (Azərbaycan Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi).

**16.** "Qorqud Ata Türk Dünyası" Film Festivalının keçirilməsi – 2023-cü il oktyabr (Mədəniyyət Nazirliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

**17.** "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı 2023" ilinin rəsmi bağlanışı – 2023-cü il noyabr-dekabr (Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi).

# "Gəncliyin səsi" festivalı başa çatdı

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 1-8 fevral tarixlərində keçirilən IX "Gəncliyin səsi" festivalı yekunlaşdı.

Fevralın 8-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında festivalın son konserti təşkil olundu.

Konsertdən əvvəl qardaş Türkiyədə fevralın 6-da baş vermiş zəlzələ nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Musiqi axşamında Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin (dirijor Səməd Süleymanlı) müşayiətində respublika və beynəlxalq müsabiqələr laureatları Ayla Həsənova, Firuzə Bəylərova, Zümrüd Əlizadə (hər üçü piano), Canel Nəcəfli, Zeyn Cəfərov, Zərrin Əliyeva, Kənan Məmmədzadə (hamısı violin), Nurlana Abdullayeva, Teymur Kazımov, Talıb İsgəndərli (hər üçü vokal), Orxan Hüseynov (violonçel) və Məhəmmədəli Paşazadə (klarnet) çıxış etdilər.



Gecədə F.Kreysler və S.Raxmaninovun "Sevgi əzabları", A.Zeynallının "Muğamsayağı", V.Adıgözəlovun "Bakı haqqında mahnı", M.Falyanın "İspan rəqsi", F.Listin "Məhəbbət xəyalları", F.Əmirovun "Poema-monoloq", Ç.A.Biksionun "Parlamid'amore, Mariu!", A.Piazzollanın "Oblivion", T.Quliyevin "Etibar", P.Sarasatenin "Navarra" və İ.S.Baxın "Aus der tiefe rufe ich" əsərləri ifa edildi.

Bildirək ki, 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə keçirilən festivalın məqsədi gənclərin yaradıcı sahəyə marağının artırılması, onların istedadının üzə çıxarılması və tanıdılması, sənət fəaliyyətinin təşviq edilməsidir.

**Nurəddin**

# Hüseyn Cavid haqqında iki biblioqrafik nəşrin təqdimatı

Fevralın 9-da Milli Kitabxanada "Hüseyn Cavid. Biblioqrafiya" və "Hüseyn Cavid. Biblioqrafik göstərici" kitablarının təqdimat mərasimi keçirilib.




Hüseyn Cavidin (1882-1941) 140 illiyinə həsr olunmuş tədbir Mədəniyyət Nazirliyi, Milli Kitabxana və Hüseyn Cavidin Ev-Muzeyi tərəfindən təşkil edilib. Millət vəkillərinin, elm, ədəbiyyat, mədəniyyət xadimlərinin qatıldığı tədbirdə Cavidin yaradıcılıq yolundan, təqdim edilən biblioqrafik nəşrlərin əhəmiyyətindən söz açılıb.

Çıxışlarda qeyd edilib ki, XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" ədəbi məktəbinin, Mirzə Ələkbər Sabir satirik şeir məktəbinin əsasını qoyduğu kimi, Hüseyn Cavid də Azərbaycan ədəbiyyatında mənzum romantik dramaturgiyanın banisi olaraq qəbul edilir. Bu mənada Hüseyn Cavidin çoxcəhətli və zəngin yaradıcılığı çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixində yeni və mühüm bir mərhələ təşkil edir. Azərbaycan ədəbiyyatında romantik mənzum faciə janrının yaranması da Hüseyn Cavidin adı ilə bağlıdır.

Vurğulanıb ki, ədibin 140 illiyi münasibətilə hazırlanan hər iki biblioqrafik vəsait Hüseyn Cavid yaradıcılığının tədqiqi və təbliği üçün böyük töhfədir. Bu nəşrlər məzmun baxımından bir-birini təkrar etmir, əksinə tamamlayır.

Tədbirin sonunda qonaqlar "Əbədiyyət şairi – Hüseyn Cavid" mövzusunda geniş kitab sərgisi və Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Ədəbiyyatımızın əbədiyyət rəmzi – Hüseyn Cavid" elektron məlumat bazası ilə tanış olublar. Məlumat bazası üç dildə (Azərbaycan, rus, ingilis) istifadəçilərə təqdim olunur.

# "Vətən: Şəhid əmanəti"



Azərbaycan İstiqlal Muzeyində 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi məqsədilə 2021-ci ildən həyata keçirilən "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" layihəsi davam edir.

Fevralın 8-də layihə çərçivəsində muzeydə "Vətən: Şəhid əmanəti" adlı tədbir-sərgi keçirilib.

Sərgidə tarix yazan Vətən övladlarından şəhid mayor Natiq İsmayılov, baş leytenant Sahil Məmmədov, Mahmud Məlikov, baş gizir Yasən Əhmədov, baş çavuş Vüsal Allahyarov, kiçik çavuş Elşən Müslümov və əsgər Elvin Babayevin muzey fondlarında qorunub saxlanılan müxtəlif şəxsi əşyaları nümayiş olunub.

Tədbirdə şəhid ailələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, "ASAN Könüllüləri" təşkilatı, "İrəli" İctimai Birliyinin üzvləri, digər qonaqlar iştirak ediblər.

Sərgi fevralın 20-nə qədər davam edəcək.

# Əlibaba Məmmədovun şəxsi əşyaları muzey və arxivlərə təqdim olunub

Xalq artisti, "Şöhrət", "İstiqlal" və "Şərəf" ordenli ustad xanəndə Əlibaba Məmmədovun (1930-2022) şəxsi əşyaları muzeylərə və Milli Arxiv İdarəsinə təqdim olunub.

Bu barədə Əlibaba Məmmədovun irsinin araşdırıcısı, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı məlumat verib. Musiqişünas bildirib ki, ustad xanəndənin öz vəsiyyətinə uyğun olaraq, şəxsi əşyaları dövlət muzeylərinə ailəsi tərəfindən təqdim edilib.

Bir neçə gün əvvəl musiqişünas müvafiq təşkilatların nümayəndələri ilə birlikdə sənətkarın evində olub və sənədlər çeşidlənərək aidiyyəti üzrə təhvil verilib.

Sənətkarın əşyaları Dövlət Səs Yazıları Arxivinə, S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi və Azərbaycan Milli Kitabxanasının fonduna verilib. Buraya sənətkarın tar aləti, səhnə geyimləri, əl çantası, müxtəlif dövlət təltifləri, afişalar və fotoşəkillər, müxtəlif illərdə sənətkar haqqında yazılmış qəzet və jurnallardakı məqalələr daxildir.

Martın 2-də Musiqi Mədəniyyəti Dövlət Muzeyində Səadət Təhmirazqızının "Ustad xatirələrdə" kitabının təqdimatı və sənətkarın muzeyə hədiyyə edilən şəxsi əşyalarının sərgisi keçiriləcək. Martın 29-da isə Beynəlxalq Muğam Mərkəzində Əlibaba Məmmədovun xatirəsinə həsr edilən konsert proqramı təqdim olunacaq.

**Lalə Azəri**

# Muzeylərdə ekskursiya işinin təşkili

Mədəni irsin qorunması, təbliği və turizm infrastrukturunun inkişaf etdirilməsi ilə əlaqədar Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğu və Basqal qəsəbə Mədəniyyət evinin birgə təşkilatçılığı ilə "Muzeylərdə ekskursiya işinin təşkili" mövzusunda təlim keçirilib.

Treninqi Milli Azərbaycan Tarixi Muzeyinin İnnovasiyalar və təhsil proqramları şöbəsinin elmi işçisi Sahibə Ələkbərova aparıb. Bu barədə muzeydən məlumat verilib.

Bildirilib ki, təlimin məqsədi muzey bələdçilərinin nəzəri və praktik biliklərini artırmaqdan ibarət olub. Təlimdə Basqal qəsəbə Mədəniyyət evinin, Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğunun, "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun əməkdaşları ilə yanaşı, Milli Azərbaycan Tarixi Muzeyində fəaliyyət göstərən "Gənc muzeyşünaslar və muzeysevərlər klubu"nun üzvləri də iştirak ediblər.

Təlimdə elmi-kütləvi işin əsas hissəsini təşkil edən ekskursiyanın mövcud nöqsan və çatışmazlıqları, bələdçilərin nəzəri və praktik bilik səviyyəsi barədə ətraflı məlumat verilib. Sonra suallar cavablandırılıb, iştirakçılara sertifikatlar təqdim olunub.



# Tarix qəhrəmanlığı unutmur

İsmayıllı rayon Mərkəzi Kitabxanasında şəhid Milli Qəhrəman, gizir Mübariz İbrahimovun (1988-2010) doğum günü münasibətilə "Mübariz – Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzi" adlı tədbir təşkil edilib. Çıxış edənlər Milli Qəhrəmanın ömür və döyüş yolundan bəhs ediblər.

***



Biləsuvar rayon Nihad Babayev adına Xırmandalı kənd Uşaq incəsənət məktəbinin kollektivi Mübariz İbrahimovun doğum günü münasibətilə Əliabad kəndində şəhid qəhrəmanın xatirə muzeyini ziyarət ediblər. Muzeydə şagirdlərin Milli Qəhrəmana həsr edilən əl işlərindən ibarət rəsm sərgisi keçirilib. Milli Qəhrəmanın doğum günü münasibətilə Biləsuvar Tarix-Diyarşünaslıq Muzeyinə də məktəblilərin ekskursiyası təşkil olunub.

***

Zaqatala rayon Heydər Əliyev Mərkəzində Mübariz İbrahimovun doğum günü ilə əlaqədar keçirilən tədbirdə şəhidə həsr olunan film nümayiş etdirilib.

***



Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi Kitabxananın əməkdaşları Vətən müharibəsinin şəhid kapitanı Samir İslamovun ailəsini ziyarət ediblər. Kitabxananın Uşaq şöbəsinin əməkdaşları isə Milli Qəhrəman, Vətən müharibəsinin şəhid polkovniki Şükür Həmidovun valideynlərinə baş çəkiblər.

***



Samux rayon Mədəniyyət Mərkəzində M.İbrahimovun doğum günü münasibətilə "Qəhrəmanlar ölmür" adlı tədbir keçirilib.

Goranboy rayon Heydər Əliyev Mərkəzində də şəhid Milli Qəhrəmanın anadan olmasının 35-ci ildönümünə həsr olunan tədbir keçirilib. Rayon Mərkəzi Kitabxanası isə "Tarix qəhrəmanlığı unutmur" adlı kitab sərgisi nümayiş etdirib.

**Hazırladı: N.Məmmədli**

# Bölgələrdə "Heydər Əliyev İli" tədbirləri davam edir

Xaçmaz RMİ. Şabran rayon Mədəniyyət Mərkəzində "Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin və milli-mənəvi dəyərlərimizin inkişafında rolu" adlı konfrans keçirilib. Alimlərin də iştirak etdiyi konfransda mövzu ilə bağlı çıxışlar dinlənilib, Heydər Əliyevin müxtəlif dövrlərdə Şabran rayonuna səfərlərini əks etdirən fotolar və kitablardan ibarət sərgiyə baxış olub.

***

**Sabirabad RMİ.** Hacıqabul rayon Heydər Əliyev Mərkəzinin kino zalında "Salnaməfilm" studiyasının istehsalı olan "Heydər Əliyev. Vətənin keşiyində" adlı sənədli film nümayiş etdirilib. Filmin rejissoru Eldar Quliyev, ssenari müəllifləri Aydın Dadaşov və Eldar Quliyevdir.









Saatlı rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr olunan onlayn bilik yarışması keçirilib. Yarışmada rayon üzrə 7 ümumtəhsil məktəbinin komandaları iştirak edib. "Birlik" komandası I, "Zirvə" II, "Xəzri" III yeri qazanıb. Qaliblərə fəxri fərman və hədiyyələr təqdim edilib.

***

**Lənkəran RMİ.** Lənkəran şəhər Heydər Əliyev Mərkəzində "Heydər Əliyev İli" münasibətilə tədbir keçirilib. Şəhərin icra başçısı Taleh Qaraşov, Milli Məclisin deputatları Cavanşir Paşazadə, Rüfət Quliyev və başqaları çıxış edərək bu gün Heydər Əliyev ideyaları əsasında dinamik inkişaf edən Azərbaycanın yeni zirvələri fəth etdiyini vurğulayıblar.

***

**Kürdəmir RMİ.** İmişli rayon Heydər Əliyev Mərkəzində "Ən uca və ölməz düha..." adlı ədəbi-bədii kompozisiya təqdim olunub. Tədbirdə İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev və Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı çıxış ediblər.

***

**Masallı RMİ.** Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Azərbaycan gəncliyinin himayədarı" mövzusunda tədbir keçirilib. Qonaqlar "Unudulmaz dahi" adlı sərgi və Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

***

**Ağstafa RMİ.** Qazax rayon Heydər Əliyev Mərkəzində Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun yerli mədəniyyət işçiləri ilə görüşü keçirilib. Görüşdə rayonun icra başçısı Rəcəb Babaşov, mədəniyyət müəssisələrinin rəhbərləri iştirak ediblər. Dövlət tərəfindən mədəniyyət sahəsinin inkişafı istiqamətində görülən işlərdən, həyata keçirilən layihələrdən danışılıb.

***

**Gəncə RMİ.** Goranboy rayon MKS-nin Qızılhacılı qəsəbə kitabxana filialı "Dahi şəxsiyyət" başlıqlı tədbir təşkil edib. Qeyd olunub ki, Azərbaycanın çağdaş tarixi böyük dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyəti ilə sıx bağlıdır.

# Şuşalı rəssamın yubileyi qeyd olunub

Sumqayıt RMİ-nin tabeliyində fəaliyyət göstərən Şuşa Dövlət Rəsm Qalereyasında şuşalı rəssam Rövşən Bayramovun 70 illiyinə həsr olunmuş tədbir keçirilib.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) rayon komitəsi və YAP Şuşa rayon təşkilatının dəstəyi ilə reallaşan tədbirdə qalereyanın direktoru vəzifəsini müvəqqəti icra edən Anar Cəbizadə, regional idarənin Şuşa rayonu üzrə nümayəndəsi Bayram Cəfərli, Şuşa rayon MSK-nin direktoru Gülsarə Abbasova, Quşçular kənd Uşaq musiqi məktəbinin direktoru Fikrət Mikayılov rəssamı yubileyi münasibətilə təbrik ediblər. Bildirilib ki, rəssam böyük sevgi ilə Şuşa mənzərələrini təsvir edərək müxtəlif mövzulu nəşrlərin səhifələrini öz təsvirləri ilə bəzəyib.



MİHİ Şuşa rayon komitəsi tərəfindən yubilyar rəssam "Qalereyanın dostu" fəxri adı ilə təltif edilib.

# Hər teatr öz tamaşaçısını tanımasa...

2023-cü ildə Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyidir. Yubiley ilinin teatrlarımız üçün necə keçəcəyi maraqlıdır. İstər səhnədə olanlar, istərsə də onlara baxmağa gələnlər üçün ən böyük hədiyyə, sözsüz ki, yeni, baxımlı, peşəkar səviyyəli tamaşalardır. Bir də müasir tamaşaçını teatra bağlayacaq mövzu rəngarəngliyi və sənət cəsarəti. Cəsarəti elə-belə qeyd etmədim. Çünki tamaşaçının canlı sənət olan teatrdan tək istəyi özünüifadə azadlığında bayağılıqdan qaçmaqla teatr sənətinin əsl məramına xidmətdir. Bu mənada teatrların qarşısındakı ən vacib suallardan biri repertuarı necə formalaşdırmaqdır.

Bu mənada paytaxtdan kənardakı teatrlar daha şanslıdır. Çünki onlar yerlərdə əhalinin əsas mədəni istirahət məkanı olduqlarından istənilən zövq və nəsil tamaşaçıya xitab edə bilərlər. Təbii ki, yaxşı sənət məhsulu ortaya qoya bilsələr. Dolayısı ilə öz tamaşaçılarını tanısalar...

Bu açıq sual-mülahizələri bir yana qoyub yerlərdəki teatrların 2023-cü il üçün repertuar plan-proqramlarına nəzər salaq. Düşünürəm ki, onların tamaşa və müəllif sıralamalarından özünüz üçün da aydın mətləb hasil edəcəksiniz.

***

Başlayaq uzun illərdən sonra media olaraq əməkdaşlığımızı bərpa etdiyimiz Naxçıvan Dövlət Dram Teatrından. Bu il özünün 140 yaşını qeyd edən qocaman sənət ocağında A.Babayevin "Xilaskar" (quruluşçu rejissor Xalq artisti Kamran Quliyev), M.F.Axundzadənin "Lənkəran xanının vəzirinin sərgüzəşti" (quruluşçu rejissor Həcərxanım Məmmədova) tamaşalarının stolarxası məşqləri gedir. Tamaşalar may ayında oynanılacaq. Həmçinin türkiyəli dramaturq Ü.Görgülünün "Cibimizdəki dəlilik" (quruluşçu rejissor Səməd Canbaxşiyev) tamaşasının da məşqləri gedir və nümunənin mart ayında təhvil verilməsi planlaşdırılır.





İl ərzində sənət ocağında Elçinin "Şekspir", J.B.Molyerin "Skapenin kələkləri" tamaşalarının da hazırlanması nəzərdə tutulub.

Naxçıvan Dövlət Kukla Teatrında isə B.İsgəndərlinin "Yalanlara inanmayaq", V.Haqverdiyevin "Qarınqulu ayı balası", "Sehrli planşet", C.Məmmədquluzadənin "Çay dəsgahı" əsərləri əsasında tamaşalar hazırlanacaq.

***

Bu il Lənkəran Dövlət Dram Teatrında da repertuar planına uyğun olaraq dörd yeni tamaşa hazırlanacaq. Onlardan birinin məşq prosesi gedir. Teatrın baş rejissoru Anar Babalı yazıçı K.Məmmədovanın narkomaniyanın fəsadlarından bəhs edən "Yaşayan ölü" pyesinin məşqlərinə başlayıb. Yeni səhnə əsərini mart ayında tamaşaçıların mühakiməsinə vermək nəzərdə tutulub. Cari ildə teatrın səhnəsində həmçinin İ.İmanın "Big in Japan", V.Şekspirin "Kral Lir", J.P.Sartrın "Bağlı qapı arxasında" pyesləri, həmçinin plandankənar bir neçə uşaq əsəri tamaşaya qoyulacaq.

***

Ağdam Dövlət Dram Teatrı da hər yaşdan olan tamaşaçılarını nəzərə almaqla plan tərtib edib. Azərbaycan xalq nağılı əsasında uşaqlar üçün hazırlanacaq "Göyçək Fatma" (rejissor E.Hümbətov) bu qəbildəndir. Türkiyəli dramaturq T.Cücenoğlunun "Matruşka" (rejissor K.Həsənov), Ə.Əmirlinin "Hasarın o üzü" (rejissor S.Əhmədov) və T.Məmmədin "Tor" (rejissor K.Həsənov) əsərləri də teatrın səhnəsinə "çıxacaq". Hazırda teatrda plandankənar olaraq iki tamaşanın – K.Yusifoğlunun "Ölüm qatarı" və H.Cavidin "İblisin intiqamı"nın məşqləri gedir və nümunələr may ayınadək izləyicisi ilə görüşəcək.

***

Qazax Dövlət Dram Teatrı da bu ili tamaşaçıları üçün fərqli repertuar seçməyə çalışıb. Daha çox vətənpərvərlik mövzulu nümunələrə üstünlük verən sənət ocağında S.Mrojekin "Mühacirlər", A.Murovdağlının "Türkün alın yazısı" (Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunur), A.İdrisoğlunun "İnan mənə" və İ.Fəhminin "Son reportaj" kimi bədii nümunələri özlərinin yeni səhnə yozumlarını tapacaq.

***

Gəncə Dövlət Dram Teatrında illik repertuar planı təsdiqlənmə mərhələsindədir.

Gəncə Dövlət Kukla Teatrı da bölgədəki azyaşlılar üçün maraqlı repertuar tərtib etməyə çalışıb. İl ərzində K.Çukovskinin "Milçək vizilçək", A.Əlizadənin "Bostanda əhvalat", Ş.Perronun "Qırmızıpapaq" tamaşaları hazırlanacaq. "Bostanda əhvalat" tamaşasının məşqlərinə artıq başlanılıb. Tamaşaya teatrın baş rejissoru Şamil Məmmədli quruluş verir.

***

Mingəçevir Dövlət Dram Teatrının 2023-cü il repertuar planı da dolğundur. "Göyçək Fatma" nağılı bu teatrda da səhnəyə qoyulur. Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə A.Soltanın "Ata" əsərinə quruluş veriləcək. A.Həsənoğlunun "Ceyhunun zaman maşını" və M.F.Axundzadənin "Hacı Qara" əsərləri əsasında eyniadlı tamaşalar da builki plana daxildir.





Plandankənar tamaşalar olaraq Ə.Əmirlinin "Varlı qadın", İ.Soltanın "Keçəlin kələyi", türk xalq nağılı əsasında "Üç ayı balası", Azərbaycan xalq nağılı əsasında "Cırtdan" kukla tamaşası və E.Məhərrəmlinin "Yaddaş, təqvim və kukla" kimi səhnə nümunələri üzərində də ilkin məşqlər gedir. Aktyorların fərdi yaradıcılıq potensialını üzə çıxarmaq məqsədilə teatrdaxili monotamaşa (fərdi performans) festivalı da təşkil ediləcək.

***

Salyan Dövlət Kukla Teatrında isə A.Babayevin "Keloğlanın sərgüzəştləri", İ.Coşqunun "Tülkü həccə gedir", L.Ustinovun "Xilaskar qurbağa" və Ə.Hüseynovun "Xoşbəxtlik quşu" əsərlərinə quruluş veriləcək. Mövzu rəngarəngliyinə çalışan salyanlı kuklaçılar tamaşaçıların say və yaş fərqini daha da artırmaq üçün tədbir-tamaşa təşəbbüslərini də irəli sürür.

***

Qax Dövlət Kukla Teatrında da paralel məşqlər davam edir. Hazırda O.Abdullayevin "Sehrli torba" (rejissor Rahib Məmmədov) və "Tülkü və quyruq" (rejissor Yusif Abdurahmanov) pyesləri üzərində məşqlər gedir. İl ərzində bu səhnədə artıq dünya klassikasına çevrilmiş A.Lindqrenin "Uzuncorab Pippi" (rejissor Rahib Məmmədov) və yerli müəllif Ə.Əhmədovanın "Necə boz ayı, aldı ev payı" (rejissor Yusif Abdurahmanov) əsərləri də səhnələşdiriləcək.

***

Şəki Dövlət Dram Teatrında il ərzində səhnə həlli veriləcək tamaşaların bir neçəsinin məşqinə başlanılıb. Türkiyəli yazar T.Orbayın (tərcümə Dilsuz Mustafayev) "21:15 qatarı" pyesi əsasında eyniadlı tamaşaya rejissor Elvin Nuri quruluş verir. Nümunə Azərbaycan Teatr Xadimləri İttifaqının 3-5 mart tarixlərində keçirəcəyi "Türk tamaşaları festivalı"nda nümayiş olunacaq. Həmçinin braziliyalı müəllif G.Fiqeyredonun "Ezop" pyesinin məşqlərinə (rejissor Mirbala Səlimli) başlanılıb.

M.F.Axundzadənin "Hekayəti-xırs-quldurbasan" əsərinin yeni quruluşda (rejissor Orxan Həmidli) tamaşası isə Azərbaycan peşəkar teatrın yaranmasının 150 illik yubileyinə həsr olunacaq. Həmçinin B.Brextin "Kuraj ana və uşaqları" pyesi də teatrda yeni səhnə həyatını (rejissor Mirbala Səlimli) yaşayacaq.

***

Qusar Dövlət Ləzgi Dram Teatrının da 2023-cü il üçün fəaliyyət planı çoxşaxəlidir. Rayondaxili sosial-mədəni aksiyalar, bayram günlərində ümumrayon şənlikləri ilə yanaşı repertuar üzrə də fərqli plan tərtibinə çalışılıb. M.F.Axundzadənin "Hekayəti-Molla İbrahimxəlil kimyagər" (rejissor Əliyar Əliyev) və yerli müəllif İ.Şamxalovun "Pərixanım" adlı məişət mövzulu əsəri (rejissor Bağır Əhmədov) səhnəyə qoyulacaq. İ.Əfəndiyevin "Qarabağnamə"si (rejissor Əliyar Əliyev) də mövsümün sonunadək təqdim olunacaq. Qusarlı teatr təmsilçiləri son zamanlar əsərləri bir neçə bölgə teatrında qoyulan X.Əliyevin yaradıcılığına da müraciət edərək onun "Qonşular" (rejissor Bağır Əhmədov) pyesini hazırlayacaq.

***

Təxmini plan təqdimatlarından da gördüyünüz kimi, teatrların xüsusən konkret mövzular ilə bağlı müəllif və əsər eyniyyəti, belə demək mümkünsə, ədəbi material korluğu diqqəti cəlb edir. Lakin əldə olan əsərlərdən də baxımlı tamaşalar hazırlamaq mümkündür. Buna nə dərəcədə nail olacaqlar, yaşayıb görərik...

**Həmidə Nizamiqızı**

# Gəncliyə qayğı gələcəyə qayğıdır

## 2023-cü ilin Gənclər üçün Prezident mükafatçılarını siz də tanıyın...

Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev fevralın 1-də "2023-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 11 gənc Prezident mükafatına layiq görülüb.

Gənclər üçün Prezident mükafatı dövlət başçısının 2013-cü il 2 iyul tarixli fərmanı ilə təsis edilib. İldə bir dəfə verilən mükafatın məbləği 10 min manatdır.

Mükafatçılar sırasında iki yaradıcı gənc də var: dirijor, bəstəkar **Orxan Həşimov** və balaban ifaçısı **Nicat Məsimov**.

**Orxan Həşimovun** dirijor kimi adı artıq musiqisevərlərə yaxşı tanışdır. O, 1995-ci ildə Bakıda dünyaya gəlib. 2017-ci ildə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasını bitirib. Beynəlxalq müsabiqələrdə dəfələrlə qalibiyyət qazanıb. Dirijorluqla yanaşı bəstəkar kimi də tanınır, solo fortepiano üçün "Poema", 3 hissəli "Klarnet və fortepiano üçün sonata" və s. əsərlərin müəllifidir.



Budapeştdə (Macarıstan) Antala Dorati adına dirijorların beynəlxalq müsabiqəsinin qalibi olmuş O.Həşimov Moskva Dövlət Konservatoriyasının simfonik orkestri, Budapeşt MAV simfonik orkestri, F.Şopen adına Polşa-Baltika Filarmoniyasının simfonik orkestri, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri ilə əməkdaşlıq edir. 2018-2019-cu illərdə Azərbaycan Dövlət Akademik Musiqili Teatrının dirijoru olub, 2019-cu ildən isə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijorudur.

***

**Nicat Məsimov** 1997-ci ildə Bakıda anadan olub. Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin balaban sinfini əla qiymətlərlə bitirib. Azərbaycan Milli Konservatoriyasında təhsilini davam etdirib. Ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş müsabiqədə Qran-pri mükafatına layiq görülüb. Milli musiqimizi ölkəmizdən kənarda da layiqincə təmsil edib. ABŞ, Rusiya və İtaliyada keçirilən nəfəsli alətlər müsabiqələrində birincilik qazanıb. 2016-cı ildə "İlin gənci" seçilən Nicat Məsimov həm də "Steep Band" musiqi qrupunun bədii rəhbəridir. ABŞ-da keçirilən "Woodwinds and Brass Competition" və "International music talent competition fall" müsabiqələrində I yeri qazanıb, İtaliyada "Citta di Pesaro" XIII Beynəlxalq musiqi müsabiqəsində qızıl medal alıb. N.Məsimovun adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılıb və Prezidentin xüsusi aylıq təqaüdünə layiq görülüb.

***

**Ülviyyə Axundova** 1998-ci ildə anadan olub. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) SABAH qruplarının məzunudur. Təhsil, gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqləndiyi üçün mükafata layiq görülüb. "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin sədri, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) sədr müavinidir.

***

Yusuf Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun gənc əməkdaşı, kimyaçı alim **Mehriban Nağıyeva** da Prezident mükafatına layiq görülənlər sırasındadır. O, Moskva Dövlət Universiteti Bakı filialının bakalavr (2015) və magistr (2017) pillələrini bitirib. Ötən il kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb.

***

**Tural Zəkəryəzadə** 1997-ci ildə anadan olub. 2019-cu ildə Milli Aviasiya Akademiyasını (avianəqliyyat istehsalatının təşkili mühəndisliyi ixtisası) bitirib.



Müxtəlif startap layihələrinin müəllifidir. 2019-cu ildə ixtira etdiyi cihaz vasitəsilə "Brinc" beynəlxalq startap akselerasiya proqramına qəbul haqqı qazanıb. Bəhreyndə 6 həftəlik proqram müddətində "Made in Azerbaijan" brendi altında hazırladığı cihazı ölkəmizdə, eləcə də Yaxın və Orta Şərq bazarında tətbiq etməyə başlayıb. "Vasco Lab" və WTEAM şirkətlərinin təsisçisi olan T.Zəkəryəzadə könüllü olaraq bir neçə startapa mentorluq edir.

***

1998-ci ildə Bakıda anadan olan **Adilə Əliyeva** UNEC-in tələbəsi olub. Bristol Universitetinin Biznes məktəbində magistr üzrə təhsil alıb. Bir sıra sosial layihələr həyata keçirib, regionlar üzrə könüllülərin və könüllü proqramının idarə edilməsi ilə məşğul olub. Hazırda "Regional İnkişaf" İctimai Birliyində layihə koordinatorudur.

A.Əliyeva mükafatla bağlı fikirlərini bölüşərkən deyib: "Bu mükafata layiq görülmək mənim üçün böyük məsuliyyətdir. Gələcək fəaliyyətimdə bu etimadı hər zaman doğrultmaq üçün səylə çalışıb qazandığım bilik və bacarıqları, təcrübələri ölkəmizin inkişafı istiqamətində sərf edəcəyəm".

***

**Kamran Əliyev** 1999-cu ildə Bakıda anadan olub, 2021-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. Hazırda Bakı Ali Neft Məktəbində biznesin idarəedilməsi və təşkili ixtisası üzrə magistr təhsili alır. 2016-cı ildən aktiv şəkildə könüllü kimi fəaliyyət göstərir. 2017–2018-ci illərdə "ASAN Könüllüləri" təşkilatında çalışıb. 2020-ci ildə Gənclər və İdman Nazirliyi tərəfindən təltif edilib, 2022-ci ildə isə Azərbaycan Ağır Atletika Federasiyasına icraçı direktor təyin olunub. Eyni zamanda "Aqrar İnkişaf Könüllüləri" təşkilatının sədri, "Azərbaycan Könüllülər Təşkilatları İttifaqı"nın sədr müavinidir.

***

1995-ci ildə Bakıda anadan olan **Şahin Xəlilov** Azərbaycan Texniki Universitetində SABAH qruplarının məzunudur. Kompüter mühəndisliyi ixtisasını fərqlənmə diplomu ilə bitirib. Təhsil aldığı müddətdə "Azercell"in təqaüd proqramının, "Seeds for the Future" proqramının qalibi olub. Yaratdığı "Wake me up" komandası ilə birlikdə "Ağıllı eynək" startapı ona uğur qazandırıb. 2020-ci ildən özünün təsis etdiyi "Entesk Group" şirkətinə rəhbərlik edir.

***

**Günay İmanzadə** 1996-cı ildə Bakıda anadan olub. Bakı Dövlət Universitetinin kimya ixtisası üzrə (ingilis bölməsi) SABAH qruplarının 2017-ci il məzunudur. Sonra təhsilini İsveçrənin Federal Texnologiya Universitetində davam etdirib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşkil etdiyi müsabiqədə "İlin İKT sahibkarı" seçilib. O, həmçinin Bakıda keçirilmiş "Texnofest – 2022" müsabiqəsinin qalibi olub. Uşaqlar üçün elmi məzmun istehsal edən "Animasiya studiyası, robototexnika və proqramlaşdırma" təhsil mərkəzini, eləcə də "Enthouse" və "Metatesk" startaplarını təsis edib. Hazırda həmin tədris mərkəzi və startapların idarəçiliyi ilə yanaşı, digər startaplar üçün də mentorluq fəaliyyəti ilə məşğuldur.

***

1997-ci ildə Naxçıvanda anadan olan **Cabbar Hüseynli** UNEC-in Maliyyə və mühasibat fakültəsində oxuyub. İtaliyanın Boloniya Universitetində magistr təhsili alıb. Hazırda UNEC-də fəlsəfə doktoru proqramı üzrə təhsil alır. "Mən azərbaycanlıyam" milli intellektual oyununun ikiqat qalibi, "Heydər Əliyev və Azərbaycan tarixi" III ümumrespublika bilik yarışı və "Konfederasiya kuboku" uğrunda "Nə? Harada? Nə zaman?" intellektual oyununun respublika birincisidir. Gənclər və İdman Nazirliyi tərəfindən "İlin gənci" seçilib.

***

**Bəxtiyar İslamov** 1995-ci ildə Bakıda doğulub. ADA Universitetinin Biznesin idarə edilməsi fakültəsində təhsil alıb. "ASAN Könüllüləri" təşkilatında departament rəhbəri və qurumun sədri vəzifələrində çalışıb. Hazırda YAP Gənclər Birliyinin sədridir.

Mükafat qazanan bütün gəncləri təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.

**Lalə Azəri**
**Nurəddin Məmmədli**

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi

Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.



Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (11)

### 1975-ci il 9 iyun

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizəd kimi Bakı şəhərinin Lenin (indiki Sabunçu) rayonunda Zevin adına (indiki M.Şəhriyar adına) uşaq kitabxanasına baş çəkib, seçicilərlə görüşüb.

### 1975-ci il 14 iyul

Heydər Əliyev SSRİ Yazıçılar İttifaqının katibliyində Azərbaycanda sovet ədəbiyyatı günlərinin keçirilməsinə hazırlıqla bağlı çıxış edib.

### 1975-ci il 23 sentyabr

Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasının "Xalqlar Dostluğu" ordeni ilə təltif edilməsinə həsr olunmuş təntənəli yığıncaqda nitq söyləyib.

### 1975-ci il 2 oktyabr

Azərbaycanda sovet ədəbiyyatı günlərinin (2–8 oktyabr) təntənəli açılış mərasimi olub. Heydər Əliyev mərasimdə nitq söyləyib.

*"...Azərbaycanda sovet ədəbiyyatı günləri ölkəmizin Yazıçılar İttifaqının Azərbaycan xalqına böyük diqqətinin əlamətidir. Azərbaycan ədəbiyyatının böyük nailiyyətlərinə verilən qiymətdir...*

*Azərbaycanın qədim tarixi vardır. Bizim diyarımızı Odlar ölkəsi adlandırırdılar. Şərqdən və Qərbdən bu "qapıya", bu "odların" yanına səyyahlar və tacirlər, alimlər və şairlər gəlirdilər. Lakin xalqın alın təri ilə yaradılmış nemətləri atəş və qılınc gücünə məhv edən istilaçılar da gəlirdilər.*

*Azərbaycanın viran qoyulmuş şəhər və kəndləri bərpa olunur, yenidən basqınlara məruz qalırdı. Azərbaycan xalqı öz yurdunu, öz torpağını bahadır şücaəti ilə, böyük qurbanlar bahasına qoruyub müdafiə edirdi. Şairlər qəhrəmanların rəşadətlərini tərənnüm edir, xalqın əzab-əziyyətindən ürək ağrısı ilə yazırdılar...*

*Tarixin bir-birinə qovuşdurduğu əsrlər, bir çox xalqların oğul və qızlarını qızğın məhəbbətlə tərənnüm edən Nizami dühasının ölməz əsərlərini, Füzulinin insanpərvərlik və xeyirxahlıq dolu misralarını, Nəsiminin fəlsəfi fikirlə zəngin lirikasını, Xaqaninin məhəbbət və iztirab tərənnüm edən poemalarını, Vidadi və Vaqifin xalq yaradıcılığı çeşməsindən qidalanan ölməz şeirlərini bizə gətirib çatdırmışdır. Tarix tələbkar imtahançıdır. Hökmdarlar, saray əyanları, zülmkarlar unudulub getmişlər.*

*Azərbaycanın böyük mütəfəkkir və humanist şairlərinin təravətdən düşməyən misraları isə bu gün də öz hikməti və insanpərvərlik ruhu ilə dünyanı heyran qoyur. Onlar xalqın azadlığı və səadəti haqqında öz dərin fikirlərini və sönməz arzularını əsrlərdən, nadanlıq, dini fanatizm, milli əsarət və ictimai ədalətsizlik zülmətindən keçirərək nəsillərə bəxş etmişlər.*

*Əvvəllər yalnız poeziya janrında yaranan Azərbaycan ədəbiyyatı bütün istiqamətlərdə inkişaf etməyə başlamışdır. XIX əsr Azərbaycan ədəbiyyatında dramaturgiya və nəsr, ədəbi tənqid və ehtiraslı publisistika geniş yayılmışdır.*

*Mirzə Fətəli Axundov, Abbasqulu Bakıxanov, Cəlil Məmmədquluzadə, Seyid Əzim Şirvani, başqa mütəfəkkirlər və yaradıcılar bütün xalqların ümidlərini, arzu və istəklərini eyni dərəcədə başa düşmüş və tərənnüm etmişlər... Bütün xalqlara dərin ehtiram Azərbaycan ədəbiyyatının təbiətindədir...*

*Cəfər Cabbarlının "1905-ci ildə" pyesində beynəlmiləlçilik mövzusu böyük bədii qüvvətlə səslənir. Süleyman Rüstəm "Qafurun ürəyi" poemasında öz həyatı bahasına rus komandirini ölümdən xilas edən azərbaycanlının rəşadətini tərənnüm etmişdir. Rəsul Rzanın "Lenin" poeması, Məmməd Rahimin "Leninqrad göylərində" poeması, Mikayıl Müşfiqin, Hüseyn Cavidin, Mehdi Hüseynin, Mirzə İbrahimovun, Süleyman Rəhimovun, Əli Vəliyevin, Əbülhəsənin, İmran Qasımovun, Xəzrinin, Bəxtiyar Vahabzadənin və bir çox başqa söz ustalarının romanları, povestləri, poemaları və pyesləri qardaşlıq və əməkdaşlığı, faşizmin qara qüvvələrinə qarşı tarixi çarpışmada ölkəmizin xalqlarının mübariz əməkdaşlığını... istedadla əks etdirirlər.*

*...Ədiblərimiz xalq qarşısında öz borclarını dərk edərək əsərlərində həyatımızın qəhrəmanlıq pafosunu daha dərindən aşkara çıxarmağa, müasirlərimizin milyonları ruhlandıra biləcək parlaq və dolğun surətlərini yaratmağa çalışırlar.*

*Həyatın ictimai-fəlsəfi tədqiqinin dərinləşdirilməsi, bədii təfəkkür miqyasının genişləndirilməsi vəzifələri həyatımızın özündən, onun inkişaf dinamikasından irəli gəlmişdir. Ədəbiyyatımız bu vəzifələri yerinə yetirərək yaradıcılıq axtarışlarının üfüqlərini genişləndirə bilər və genişləndirməlidir.*

*Torpaq yazda zəhmətsevər əkinçini gözlədiyi kimi həyatımızın qlobal mövzuları da öz istedadlı tədqiqatçısını gözləyir. Lakin torpağı dərindən və məhəbbətlə, yaradıcılıq istedadının, qüdrətli sənətkar sözünün, ideya inamının... gücü ilə şumlamaq lazımdır.*

*Bədii yaradıcılıq yeni insanın şüurunun formalaşması proseslərini doğru-düzgün və ehtirasla əks etdirməli, cəmiyyətimizin əxlaq meyarlarının bərqərar olmasına kömək etməlidir. Ədəbiyyat, şair demişkən, "illəri yararaq" bizim günlərin nəfəsini gələcəyə çatdırmalıdır...".*

### 1975-ci il 4 oktyabr

Azərbaycanda sovet ədəbiyyatı günləri çərçivəsində rus şairi Sergey Yeseninin Bakının Mərdəkan qəsəbəsindəki ev-muzeyinin açılışı olub. Heydər Əliyev mərasimdə iştirak edib.

### 1975-ci il 6 oktyabr

Heydər Əliyev Bakıda Səməd Vurğunun Ev-Muzeyinin açılışında iştirak edib.

### 1975-ci il 8 oktyabr

Heydər Əliyev Azərbaycanda sovet ədəbiyyatı günlərinin başa çatmasına həsr olunmuş təntənəli yığıncaqda nitq söyləyib.

**Hazırladı: V.Orxan**

***(davamı var)***



# "Oxu mədəniyyəti"

## UNEC-də "Heydər Əliyev İli" çərçivəsində layihənin təqdimatı olub

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər planı çərçivəsində "Oxu mədəniyyəti" layihəsinin təqdimatı olub. Tədbirə millət vəkilləri, tanınmış ziyalılar, mədəniyyət, ədəbiyyat xadimləri qatılıblar.

Rektor Ədalət Muradov qonaqları salamlayaq "Heydər Əliyev İli" çərçivəsində gənclərin mütaliəyə marağının artırılması və oxu mədəniyyətinin formalaşdırılması məqsədilə həyata keçirilən layihə haqqında danışıb: "Bu gün cəmiyyətdə kitaba maraq azalır. Cəmiyyəti irəli aparan şəxsiyyətləri məhz mədəniyyət yetişdirir. Universitet isə bilik və elm verir, şəxsiyyət yetişdirmir. Bu gün gənc nəslə kitab oxumağı aşılamaq üçün onların dizaynında, çapında da həmin nəslin zövqü və marağı nəzərə alınmalıdır".

UNEC-də biri 24/7 olmaqla, 5 kitabxananın fəaliyyət göstərdiyini diqqətə çatdıran rektor kitab fondunun son 4 ildə 7 faiz, ənənəvi kitabxanadan istifadənin 84 faiz, elektron kitabxanadan istifadənin 47 faiz artdığını qeyd edib.

UNEC Kitabxana İnformasiya Mərkəzinin direktoru Adilə Abdullayeva dünya ölkələri üzrə oxu statistikası, mütaliənin faydaları barədə maraqlı təqdimatla çıxış edib. Həmçinin UNEC kitabxanalarından istifadə üzrə statistikanı açıqlayıb.

Tədbirdə çıxış edən Milli Kitabxananın direktoru Kərim Tahirov nəşriyyatların kitab çapında gənclərin maraqlarının nəzərə almasının vacibliyindən danışıb, ölkə üzrə mütaliə statistikasının aparılması üçün universitetlərin, ziyalıların dəstəyinə ehtiyac olduğunu bildirib.

Tələbələrə biliklə yanaşı, oxu mədəniyyətinin aşılanmasının da universitetlərin missiyası olduğunu vurğulayan millət vəkili Etibar Əliyev şəxsi kitabxanasından 80 kitabı UNEC-ə hədiyyə etdiyini bildirib.

Mətbuat Şurasının sədri Rəşad Məcid mütaliənin insanların söz bazasının zənginləşməsi, özgüvəninin artması, natiqlik bacarığının formalaşması istiqamətində qazandırdığı üstünlüklərdən danışıb.

Şair, yazıçı, tərcüməçi Seyran Səxavət kitaba sevginin aşılanmasında ailənin rolundan söz açıb.

Millət vəkili, akademik Nizami Cəfərov tələbələrin dərsliklərə marağını artırmaq üçün universitetlərdə fundamental dərsliklərin hazırlanmasının vacibliyini diqqətə çatdırıb.

Millət vəkili Fazil Mustafa oxu mədəniyyətinin təbliği ilə bağlı universitetlərin üzərinə böyük missiyanın düşdüyünü və bu tip tədbirlərin ənənə halına çevrilməli olduğunu qeyd edib.

Professor Şahlar Əsgərov, "Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlu, şair Aqşin Yenisey də mövzu ilə bağlı fikirlərini bölüşüblər.

# "Qaranlıqdan işığa"

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Zığ qəsəbə Mədəniyyət evində "Səhnə" teatrının təqdimatında "Qaranlıqdan işığa" tamaşası nümayiş olunub.

Tamaşada narkotikə aludə olmuş bir gəncin keçirdiyi iztirablardan, yaşadığı əzablı həyat tərzindən, ailəsinə gətirdiyi faciələrdən və düçar olduğu qaranlığın içindən işığa doğru necə çıxmasından bəhs edilir.

Səhnə əsərinin məqsədi insanları cəmiyyətin və ümumilikdə bəşəriyyətin ən böyük bəlalarından olan narkomaniyaya qarşı mübarizəyə çağırmaqdır.



Tamaşanın müəllifi Pakizə Hüseynova, quruluşçu rejissoru Mirzəağa Mirzəyevdir.

№11 (1980)
10 fevral 2023
www.medeniyyet.az

Dünya xəzinəsindəki irsimiz

# Azərbaycan muğamının 20 illik UNESCO yolçuluğu



Qeyri-maddi mədəni irs anlayışı özündə əsasən mənəvi mədəniyyəti ehtiva edir. İfaçılıq sənətləri, sosial təcrübələr, mərasimlər, bayram tədbirləri, təbiətə və kainata aid bilik və təcrübələr, ənənəvi sənətkarlığa aid bilik və təcrübələr qeyri-maddi mədəni irs hesab edilir.

UNESCO tərəfindən 2003-cü ilin 17 oktyabrında "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiya qəbul olunub. Sənəddə qeyri-maddi mədəni irsin tərifi, "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"nın tərtibi, irs nümunələrinin siyahıya daxil edilmə qaydaları da öz əksini tapıb.

Konvensiyanın məqsədləri qeyri-maddi mədəni irsin qorunması, aidiyyəti icmaların, qrupların və ayrı-ayrı şəxslərin qeyri-maddi mədəni irsinə hörmətin təmin edilməsi, yerli, milli və beynəlxalq səviyyələrdə qeyri-maddi mədəni irsin əhəmiyyəti haqda məlumatlılığın artırılması və onun qarşılıqlı şəkildə qəbul edilməsinə təminat verilməsi kimi məsələləri əhatə edir.

Azərbaycan Respublikası "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyaya 18 yanvar 2007-ci il tarixində, Milli Məclisdə ratifikasiyadan sonra qoşulub.

Bu gün ölkəmizdən UNESCO-nun qeyri-maddi mədəni irslə bağlı siyahılarına 19 nümunə daxildir. Bunlardan 17-si "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na, 2-si isə "Təcili qorunmağa ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısı"na salınıb. İrs nümunələrindən 11-i milli, 8-i isə çoxmillətli nominasiya faylı kimi təqdim olunub.

Azərbaycanla ən çox ortaq irs nümunələrinə sahib olan ölkələr Türkiyə, İran, Qazaxıstan və Özbəkistandır. UNESCO siyahılarında yer alan bəzi irs nümunələrimiz spesifik olaraq Azərbaycanın regionlarına (Naxçıvan – Yallı rəqs ənənəsi; İsmayıllı (Basqal – kəlağayı; Lahıc – misgərlik), Göyçay – nar bayramı; Şəki – ipək sənəti) aiddir.

***

"Dünya xəzinəsindəki irsimiz" rubrikasında UNESCO-nun müvafiq siyahlarında yer alan qeyri-maddi mədəni irs nümunələrindən söz açacağıq. İlk olaraq muğam sənətinin UNESCO yolçuluğuna nəzər salırıq.

Təşkilat tərəfindən dünya irs xəzinəsinə Azərbaycandan daxil edilən ilk nümunə muğamdır. 7 noyabr 2003-cü il tarixində muğam sənətimiz "Bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri" elan olunub.

2008-ci ildə isə, yəni UNESCO-nun müvafiq konvensiyasının qüvvəyə minəndən və onun əsasında "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı" tərtib olunmağa başlayandan sonra, Azərbaycan muğamı sözügedən siyahıya daxil edilib.

Beləliklə, bu il muğam sənətimizin "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na salınmasının 15-ci ildönümüdür.

UNESCO-nun müvafiq siyahıları üçün nominasiya fayllarının hazırlanmasında yaxından iştirak etmiş Əməkdar incəsənət xadimi, sənətşünas Sənubər Bağırova ilə 20 il əvvələ səyahət edirik: "2002-ci ildə Azərbaycanın UNESCO-dakı nümayəndəsi mərhum Ramiz Abutalıbov təklif etdi ki, muğamın bu təşkilat səviyyəsində tanınması istiqamətində işə başlayaq. Sənədlər UNESCO standartları çərçivəsində hazırlanmalı idi.




Bu fayla muğamın elmi tərifi, tarixi, cəmiyyətdəki mövqeyi və cəmiyyətin bu sənətə münasibəti, ifaçılıq ənənəsi, müxtəlif lent yazıları, disklər daxil idi. Hər hansı UNESCO faylı üçün mütləq 10 dəqiqəlik sənədli tanıtım filmi də çəkilməli və fotolar olmalıdır. Muğamın tarixi və bədii əhəmiyyəti haqqında 50 səhifəlik mətn yazdım. Mənimlə bərabər faylın hazırlanmasında beynəlxalq ekspert Jan Dürinq də iştirak etdi. Mən milli ekspert kimi bu işə qatılmışdım.

UNESCO-nun Qeyri-maddi irs şöbəsinin müdiri Noriko Aikava o zaman Azərbaycana gəldi. Bakıda üç gün qaldı, bu müddət ərzində mənə müxtəlif suallar verdi. Sonradan bildim ki, mənim hazırladığım mətndə toxunduğum məqamları o, əvvəlcədən şifahi soruşurmuş ki, görsün bunun elmi tərəfini nə dərəcə bilirəm. Sonda mənə belə bir sual da verdi: "Siz necə sübut edə bilərsiniz ki, Azərbaycan muğamı unikaldır, yəni, yalnız sizin xalqa məxsusdur? Yəni, ərəb və ya fars muğamından törəmə deyil". Bu sual məni də çaşdırdı. Çünki biz uşaqlıqdan öyrəşmişik ki, Azərbaycan muğamı unikaldır, bunun isbatına ehtiyac yoxdur. Bunu biz aksiom kimi qəbul etdiyimizdən onun sübutuna nə vaxtsa ehtiyac olacağını düşünməmişik. Onda mən dedim ki, hər xalqın öz dili olduğu kimi, musiqi dili də var. Heç kim deyə bilməz ki, bir xalqın musiqi dili başqasından üstündür. Azərbaycan muğamı bizim musiqi dilində danışdığı üçün bizimkidir. Bu cavab onu qane etdi. Bundan sonra o da təklif etdi ki, namizədlik faylını hazırlamaq mənə tapşırılsın.

2003-cü ildə İraq "makom"u və özbək-tacik "şaşmakom"u da bu siyahıya düşdü. Bu bir daha sübut etdi ki, Azərbaycan muğamının öz yeri var...".

Sənubər xanım deyir ki, nominasiya faylı xüsusi forması olan blank şəklində anketdir. Burada geniş tərif deyil, konkret suallar cavablandırılır: "Həmin blank dəqiq yazılmalı, bütün maddələr düzgün təhlil edilməlidir. Nominasiyanın qəbulunda Xalq artisti, xanəndə Alim Qasımov da iştirak edirdi. O hətta həmin vaxt sevincindən muğam da ifa etdi".

Alim Azərbaycan muğamının bəşəriyyətin incisi kimi tanınmasında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna rolunu xüsusi qeyd edir: "O vaxt Mehriban xanım Azərbaycan Mədəniyyətinin Dostları Fonduna (Azərbaycan Mədəniyyət Fondu) rəhbərlik edirdi və mənim çalışdığım AMEA Memarlıq və İncəsənət İnstitutunun rəhbərliyinin xahişi ilə musiqi mədəniyyətimizin təbliği ilə bağlı layihələrə dəstək olurdu. Mehriban xanımın nəcib əməlləri UNESCO-ya məlum olanda 2004-cü ildə onu xoşməramlı səfir elan etdilər. Mehriban xanımın birbaşa təşəbbüsü ilə 16 layihə hazırladım. Bilirsinizmi, mənim ailəm – xalam, bəstəkar Ağabacı Rzayeva, atam tarixçi olsa da, muğamı gözəl bilirdilər. Onların bir sözü bu günə kimi mənim üçün bir devizdir: "Ziyalı insanlar dövlətə və xalqa xidmət etməyə borcludurlar". Mən çox şadam ki, sonradan aşıq sənəti, tar ifaçılığı sənəti fayllarının da müəllifi oldum".

***

Muğam sənətinin tarixi çox qədimdir. Bu qədim mirasın qorunması, gələcək nəsillərə çatdırılması, beynəlxalq aləmdə təbliğ olunması Heydər Əliyev Fondu tərəfindən daim diqqətdə saxlanılır. Muğam sənətinin ölkəmizdə beynəlxalq və yerli əhəmiyyətli ənənəvi müsabiqələr təşkil olunur. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə paytaxtda və bölgələrdə muğam mərkəzləri yaradılıb. "Muğam dünyası" Beynəlxalq Muğam festivalları, "Muğam" televiziya müsabiqələri keçirilir. Bu gün Azərbaycan muğam ifaçılarının sorağı dünyanın məşhur konsert zallarından gəlir. Uzunillik işğaldan sonra mədəniyyət paytaxtımız Şuşada muğamlarımız səslənir...

**Lalə Azəri**

## Türk xalqlarının mərasimləri haqqında monoqrafiya çap olunacaq

Tarix elmləri doktoru Güllü Yoloğlunun "Türk xalqlarının mərasimləri" adlı yeni monoqrafiyası AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Elmi şurası tərəfindən çapa tövsiyə olunub. Bu barədə institutun Elmi şurasının iclasında müvafiq qərar qəbul edilib.



İnstitutun baş direktoru professor Abbas Seyidov Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə hazırlıq tədbirləri ilə bağlı görüləcək işlər barədə danışıb.

Dosent Səfər Aşurovun təqdimatında arxeologiya, etnoqrafiya və etnologiya ixtisaslarına elmlər doktoru və fəlsəfə doktoru hazırlığı üzrə qəbul olmuş doktorant və dissertantların fərdi planları dinlənilib və müzakirə edilib.

## "Azərbaycan iqtisadiyyatı 100 ildə" çoxcildliyinin təqdimatı

AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunda akademik Ziyad Səmədzadənin "Azərbaycan iqtisadiyyatı 100 ildə" çoxcildliyinin təqdimatı keçirilib.

İnstitutun baş direktoru tarix elmləri doktoru, professor Kərim Şükürov beşcildliyi Azərbaycan iqtisad elmi üçün böyük töhfə kimi dəyərləndirib.

Akademik Ziyad Səmədzadə bildirib ki, Ulu öndər Heydər Əliyev 1997-ci il yanvarın 17-də AMEA-nın üzvləri ilə görüşündə XX əsrdə və müstəqillik illərində Azərbaycanın inkişaf tarixinin yazılması ilə bağlı fikirlərini bölüşmüş, alimlərə bu yöndə tövsiyələr vermişdi. Çoxcildliyin ərsəyə gəlməsində bu fikir və tövsiyələr əsas götürülüb.

Alimlər İlqar Niftəliyev, Cəbi Bəhramov, Əsədulla Cəfərov, Hacı Həsənov, Mais Əmrahov, Müşfiq Atakişiyev, Məhiş Əhmədov çoxcildliyin əhəmiyyətindən söz açıblar. Qeyd olunub ki, monoqrafiyada Azərbaycan iqtisadiyyatının 1918-ci ildən, Cümhuriyyət dövründən başlayaraq tarixi, əsas problemləri araşdırılır və təhlil edilir. Çoxcildlikdə respublika iqtisadiyyatının keçən əsrin 70-ci illərində yeni inkişaf mərhələsinə keçirilməsini şərtləndirən amillər, müstəqil Azərbaycanın iqtisadi təhlükəsizliyi, iqtisadiyyatının strukturunun şaxələndirilməsi, tarazlı inkişafı, ərzaq təhlükəsizliyinin, iqtisadi inkişafla demoqrafik inkişaf arasında qarşılıqlı əlaqə və asılılığın təmin edilməsi kimi taleyüklü əhəmiyyət kəsb edən məsələlərə müəllifin baxışları metodoloji baza kimi müəyyənləşdirilib. Hər bir cildin strukturu xronoloji-problem əsasında qurulub. Monoqrafiya zəngin arxiv sənədləri, mətbuat materialları, statistik məlumatlar əsasında yazılıb. I-IV cildlər son 100 ildə Azərbaycan iqtisadiyyatına, sonuncu V cild həmin dövr ərzində Qarabağın iqtisadiyyatına həsr olunub.

## Nakam ömür – yetkin sənət

Bəzən sənətdə iz qoymaq üçün uzun illər, böyük zəhmət lazım olur. Xalqımızın elə istedadlı oğulları da olub ki, çox gənc yaşlarında şöhrətin zirvəsinə qalxa biliblər.

Zərif Qayıbov 23 il yaşayıb. Ancaq bu qısa ömründə usta tarzən kimi tanınıb. Düşünürsən ki, belə istedad və qabiliyyət sahibi əgər uzun ömür yaşasaydı, sənət salnaməmizə nələr bəxş edərdi...

1920-ci ildə Gəncə şəhərində tanınmış maarif xadimi İsmayıl bəy Qayıbovun ailəsində bir oğlan uşağı dünyaya göz açır. Adını Zərif qoyurlar. Zərif erkən çağlardan musiqiyə maraq göstərir. Bunu hiss edən atası yaxın dostu, vaxtilə Qori Müəllimlər Seminariyasında birgə oxuduğu bəstəkar Üzeyir Hacıbəyli ilə məsləhətləşir. 1929-cu ildə onu Gəncə şəhərində musiqi məktəbinin tar sinfinə qoyur. O, tarzən Həmzə Əliyevin sinfində sənətin sirlərinə dərindən yiyələnir. Təhsilini başa vurduqdan sonra Bakıda Musiqi Texnikumuna qəbul olunur. Burada öz istedad və bacarığı ilə müəllimlərinin sevimlisinə çevrilir.

Texnikumda oxuduğu müddətdə özünü tarzən kimi təsdiq edən Zərif Qayıbov 1938-ci ildə Moskvada keçirilən ilk Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak üçün dəvət olunur. Gənc tarzən bu mədəniyyət layihəsində Azərbaycan tarının şöhrətini layiqincə təqdim edir.

Zərif Qayıbov təhsilini başa vurduqdan sonra mütəmadi olaraq klassik əsərlər və muğamlardan ibarət konsert proqramları ilə filarmoniyada çıxışlar edir. İfaları radio dalğalarında səsləndirilir. O, çalğısında muğamın incəliklərinə xüsu-



si diqqət yetirir. Sənətdə qazandığı uğurlar onun karyerası üçün də zəmin yaradır. Təyinatla Azərbaycan Opera və Balet Teatrında işə başlayır. Öz üzərində yorulmadan çalışan istedadlı tarzən bir il sonra, 1939-cu ilin oktyabrında Moskvada xalq musiqi alətləri ifaçılarının Ümumittifaq müsabiqəsinə qatılır. İki həftəyə yaxın davam edən yarışmada o, iki dəfə çıxış edir. Birinci çıxışında özünün şah ifası olan "Şur" muğamını, ikinci dəfə isə "Ləzginka" oyun havasını çalır. Onun mahir çalğısı münsiflər heyəti tərəfindən qiymətləndirilir, müsabiqənin yüksək mükafatına layiq görülür.

Z.Qayıbov 1940-cı ildə doğma yurdu Gəncəyə qayıdır. Orkestr təşkil edərək şəhərin ən yaxşı musiqiçilərini ətrafına toplayır. Kollektiv maraqlı konsert proqramları ilə musiqisevərlərin könlünü oxşayır.

Araşdırmalarda qeyd olunur ki, tarzənin ən məşhur ifalarından biri "Şur" muğamı olur. Görkəmli bəstəkar, SSRİ Xalq artisti Fikrət Əmirov onun ifaçılıq bacarığından danışarkən deyib: "Mən çox tarçalanlar görüb, dinləmişəm... Zərifin çalğısı qeyri-adi, həm də təkrarolunmaz idi. Onun sarı simlərdə gəzişməyinin misli-bərabəri yox idi. Xüsusilə, onun "Şur"una söz ola bilməzdi. Mən Zərifin sarı simlərdə özünəməxsus zərif gəzişməsini heç bir tarzəndə görməmişəm. Zərifin çalğısı özü kimi zərif, incə və düşüncəli idi. Zəriflə keçirdiyim günlər mənə muğamlar içərisində ən çox sevdiyim "Şur"u xatırladır. Zərif "Şur" üçün yaranmışdı".

Tanınmış tarzən, pedaqoq, Xalq artisti Əhməd Bakıxanov da yetirməsi Z.Qayıbovun məharətli çalğısından bəhs edib: "Zərifin zərif barmaqları, onun musiqi ilə yoğrulmuş qəlbi sanki tar çalmaq üçün yaranmışdı. Mən Zərifə hər hansı bir muğamı öyrədəndə o, həmişə həmin muğamın hər hansı istinad pərdəsinə əsaslanmasını tez qavramağa çalışır, muğam üzərində sərbəst yaradıcılıq işi aparırdı. Lakin nədənsə ən çox "Şur" muğamına meyil edirdi. O, bu muğamı, xüsusən sarı simlərdə özünəməxsus gəzişmələrlə ifa edirdi. Belə bir işdən mən nəinki inciməz, hətta həddindən artıq sevinərdim. Çünki tələbələrimin içərisində ən çox Zərifin "Şur"undan ləzzət alardım".

Z.Qayıbovun musiqi sənətinə dair bir çox layihə və xəyalları olub. Lakin tale ona bu arzularını gerçəkləşdirməyə vaxt verməyib. 14 dekabr 1943-cü ildə, 23 yaşında Gəncədə vəfat edib.

Belə qeyd olunur ki, Z.Qayıbov ölümündən bir neçə gün əvvəl dostu Fikrət Əmirova, müəllimləri Həmzə və Məhəmmədə "Özünüzə Zərif tapın... Mənimki də bura qədər idi", – deyib. Onun vaxtsız vəfatı həmkarları, dostları və sənətsevərlər tərəfindən böyük kədərlə qarşılanır. Nakam tarzənin adının əbədiləşdirilməsi üçün təşəbbüs göstərilir. Bu gün Gəncə şəhər 5 nömrəli Uşaq musiqi məktəbi tarzənin adını daşıyır.

Onu da qeyd edək ki, Zərif Qayıbov müstəqil Azərbaycanın ilk baş prokuroru olmuş İsmət Qayıbovun (1942-1991) qardaşıdır.

**Savalan Fərəcov**

## Ermənilər Ziyarət dağındakı alban məbədini də mənimsəməyə çalışıb

Qafqaz Albaniyasına məxsus dini ziyarətgahlardan biri də Xocavənd rayonu ərazisindəki Ziyarət dağındadır. Dəniz səviyyəsindən 2480 metr hündürlükdə olan dağ Qarabağ silsiləsinin cənub-şərqində yerləşir.

Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Albanşünaslıq Elmi Mərkəzinin Qafqaz Albaniyası memarlıq abidələri və mənəvi irsinin tədqiqi sektorunun müdiri tarix üzrə fəlsəfə doktoru, dosent Natiq Alışov bildirib ki, Ziyarət dağı xristianlıqdan öncə də müqəddəs məkan kimi Ağoğlan piri adı ilə tanınıb.

Hazırda burada mövcud olan alban məbədinin uzunluğu 11,75, eni 6,70, hündürlüyü 5 metrdir. Tikili birnefli bazilika olmaqla tağvarı örtüyə və nalvarı altara malikdir. Əsas giriş qərb divarında olmaqla şərq, qərb və cənub divarlarında mizraqvarı pəncərələr var. Kilsə kobud formada yonulmuş yerli daşlardan istifadə edilməklə inşa olunub.

N.Alışov qeyd edib ki, Qarabağ regionunun yüksək dağlıq ərazisində yerləşən dini abidə də erməni işğalçılarının qeyri-qanuni müdaxilələrindən kənarda qalmayıb. İşğal zamanı



ermənilər "təmir-bərpa" işləri adı altında alban kilsəsini özünküləşdirməyə çalışıblar. Tağvarı örtüyə malik kilsənin damörtüyü sökülərək çatma formaya salınıb, üzərinə dəmir-beton konstruksiyası yığılaraq Ermənistan istehsalı olan kirəmitlər döşənib. Kilsənin daxili kompozisiyası da ciddi dəyişikliyə məruz qalıb.

2020-ci ilin 44 günlük Vətən müharibəsində Hadrut (Ağoğlan) qəsəbəsinin işğaldan azad edilməsi ilə bu məbəd də düşmən tapdağından qurtulub.

## Ədəbiyyat İnstitutunun 90 illiyi qeyd ediləcək

2023-cü ildə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 90 yaşı tamam olur. İnstitutun cari il üçün fəaliyyət planında bu əlamətdar yubileyə də yer ayrılacaq.

Ədəbiyyat İnstitutunun Elmi şurasının növbəti iclasında "Heydər Əliyev İli" ilə əlaqədar tədbirlər və nəşrlər, Türkiyə Cümhuriyyətinin 100 illiyi ilə bağlı tədbirlər, həmçinin institutun özünün 90 illiyinin qeyd olunması məsələləri və 2023-cü il üçün elmi tədqiqat işlərinin əhatəli planı nəzərdən keçirilib.

AMEA-nın prezidenti Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli bu istiqamətlərdə görüləcək işlərdən bəhs edib.

İclasda əməkdaşlardan Tahir Məsimov, İlham Məmmədli və Sevil Əfəndiyeva yubileyləri münasibətilə institutun fəxri fərmanları ilə təltif olunublar.

Təhsil şöbəsinin müdiri Samir Səttarov elmlər və fəlsəfə doktoru hazırlığı üzrə doktorant və dissertantların attestasiyadan keçməsinə dair məlumat verib.

Yadımdadır...

# “Sarı əlcək”dən başlanan sənət yolu

Bu il Azərbaycan peşəkar milli teatrının 150 illiyidir. ”Yadımdadır...” rubrikası altında ömrünü əsasən bölgə teatrlarının inkişafına həsr etmiş, hazırda müəyyən səbəblərdən səhnədən uzaq düşmüş insanların həyat və sənət yoluna işıq salacağıq.



“Təzəcə o vaxtkı Ticarət Texnikumundan məzun olub Bakının mərkəzindəki mağazalardan birində işə başlamışdım. Bir gün yenə o gəldi. Sakitcə mənə yaxınlaşıb “Qızım, məncə, satıcılıq sənin üçün deyil. Səndən yaxşı aktrisa çıxar. Nə deyirsən, bəlkə fikirləşəsən?” – dedi. Düzü, onu bir-iki dəfə bu mağazada görmüşdüm. Hər dəfə diqqətlə mənə baxdığı gözümdən yayınmamışdı. Bu şəxs gözəl aktyorumuz, sevilən rolların ifaçısı, Əməkdar artist Məcid Şamxalov idi. Aramızda keçən qısa dialoqdan sonra təklifinə “hə” dedim və onun məsləhəti ilə Xalq artisti, görkəmli rejissor Lütfü Məmmədbəyovun Xalq teatrına getdim. Məcid müəllim məni Lütfü müəllimə bərk-bərk tapşırdı və beləcə, xatirimdə özünə əbədi yer tutdu. Yadımdadı, orada ilk rolum “Sarı əlcək” tamaşasında oldu. Beləliklə, bu sənətdə addımlarımı atmağa başladım. Orada səhnəmizin ən parlaq aktyorlarını gördüm. Təsəvvür edin, həm uşaqlıq arzum reallaşmışdı, həm də sənətin ulduzlarını görüb onlarla səhnəyə çıxa bilirdim. Bundan gözəl nə ola bilərdi?! Eh, o illər mənim həyatımın ən gözəl dövrü idi...”.

Onun sözünü kəsmirəm. İstəyirəm bu buzovnalı xanımın Bakıda başlayıb Ağdamda bitən səhnə yoluna öz dilindən səyahət edim. Axı hər kəsin öz həqiqəti var...

Əslində, qəhrəmanım həyat dolu, şən-şaqraq qadındır. Çöhrəsindən təbəssümü də əskik etmir. Üstəlik onu qiyabi (videobağlantı ilə) müsahibəyə çəkməyim ad gününə təsadüf etdiyindən bir başqa ovqatda idi. Uzaq-yaxın keçmişdən xeyli danışdıq.

Ömrünü Ağdam Dövlət Dram Teatrına bağlayan Əməkdar artist Cəmilə Məmmədzadə bu teatrın səhnəsində 200-dən artıq rol oynayıb. Teatrda “Adamın adamı” tamaşasında epizodik rolla səhnəyə çıxsa da, sonrakı səhnə tərcümeyi-halına daha çox baş qəhrəmanları yazıb.

Düşünürəm ki, bu məqamda onun ömür və sənət yoluna qısa nəzər salsaq yaxşıdır.

Cəmilə Məhərrəm qızı Məmmədzadə 1948-ci il fevralın 6-da Bakıda anadan olub. Orta təhsil və texnikumdan bir müddət sonra taleyini teatra bağlayır.

1974-cü ildən fəaliyyətini Ağdam Dövlət Dram Teatrında davam etdirir. Bir-birinin ardınca maraqlı obrazlar yaradan aktrisa qısa zamanda bölgə tamaşaçılarının diqqətini cəlb edə bilir.

“Xalq teatrından bir qrup olaraq bizi Sumqayıt Dövlət Dram Teatrına, oradan da İrəvan Dövlət Azərbaycan Dram Teatrına apardılar. Qısa fəaliyyət dövrü olsa da, indi hamısı xoş xatirədir. Oturub düşünəndə elə bilirəm bu həyat bir göz qırpımında keçdi. Amma yox, sözsüz ki, onun hər günü, hər ili səhnəyə məhəbbətə sərf olunub deyə mənə elə gəlir an olaraq ötdü. Vaxtilə səhnədə tərəf-müqabil olduqlarım, birlikdə səhnə, sənət sevinclərimi bölüşdüklərim bir-bir həyatdan köçdülər... İndi qəribsəyirəm, darıxıram onlar üçün. Amma bizim teatrda indi də dostluq, sevgi, səmimiyyət var. Teatrı sevən, onun sehrinə inanan tamaşaçımız həmişə olub, bu gün də var. Biz sənət adamlarına hörmət, ehtiram göstərirlər. Bilirsiz niyə? Çünki bizlər bütün həyatımızı, sağlamlığımızı, sevgimizi səhnəyə, teatra vermişik. Tamaşaçı bunu heç vaxt itirmir. Bir də əlahəzrət səhnə. Onun başqa bir sehri, gücü, sirri var...”.

Bu teatrda səhnə yozumu tapan aktrisa “Fərhad və Şirin”də Məryəm, “Təhminə və Zaur”da Təhminə, “Pəri cadu”da Pəri, “Yaşar”da Yaqut, “Xoşbəxtlər”də İnci və s. kimi aparıcı rolları ifa edir.

Onun Ağdam həyatı heç də həmişə rəvan olmayıb. Cəsarəti, əzmkarlığı və əsası da ötkəmliyi sayəsində qarşısına çıxan maneələri dəf edə bilib. O günləri qürurla yada salan Cəmilə xanım deyir: “80-ci illərin sonları, çətin vaxtlar idi. Moskvadan bölgə teatrlarına yoxlama gəlmişdi. Öz aralarında danışdıqlarını eşitdim. Bildim ki, bizim teatrı bağlamaq istəyirlər. Onlar elə bildi ki, mən rus dilində başa düşmürəm. Söhbətlərindən təşvişə düşdüm. Adam cavan olanda başqa bir enerjidə olur. Ani düşündüm və artıq yola düşməyə hazırlaşan heyətin önünü kəsib rus dilində “Xahiş edirəm, başqa bir tamaşamız da var. Ona da baxın, əgər xoşunuza gəlməsə, bağlayarsınız”, – deyib susdum. Qəhər məni boğmuşdu. Bir-birinə baxıb könülsüz razılaşdılar. “Təhminə və Zaur” tamaşasını bu dəfə sırf onlar üçün oynadıq. Hətta mərhum aktyorumuz, Əməkdar artist Tofiq Qarayevdən xahiş etdim tamaşanı rus dilində yerində tərcümə də etdi. Baxmayaraq ki, Tofiq tərəf-müqabilim idi, Zauru oynayırdı. Amma razılaşdı. Nazir Rüstəmov və mən səhnəyə çıxdıq. Qəhrəmanlarımızın dramı və bizim inandırıcı oyunumuz onların xoşuna gəldi. Hətta ağladılar da. Onların göz yaşları bizi sevindirdi (gülür). Tamaşadan sonra bizi təbrik edib “Sizlərə görə bu teatr yaşayacaq” deyib getdilər və teatrımız bağlanmadı. Düzdü, ondan sonra qaçqınlıq, köçkünlük kimi daha ağır sınaqlar da gördük. Amma yenə də yolumuzdan dönmədik”.

Deyir 90-cı illərin ağır müharibə, işğal dövrü idi. Hamı Bakıya üz tuturdu. Mən Bərdədən çıxmadım: “Asan olmadı, xeyli əziyyət çəkdik. Aylarla maaş almadıq. Amma teatrdan qopmadıq, onu yaşatdıq. Qruplar şəklində cəbhə bölgələrinə, orta məktəblərə gedirdik. Beləcə, az tapıb çox işlədik. Sənət sevgimiz bizi səhnədən qopara bilmədi. “Qarabağ teatrı Qarabağda qalmalıdır! Çünki biz gec-tez Ağdama qayıdacağıq!” şüar-inamı ilə müvəqqəti Bərdədə məskunlaşsaq da, şükür, sonradan Ağdamımıza qayıtdıq”.

Bəli, teatr fədailərin hesabına, çətinliklə olsa da, yaşadı, yeni-yeni səhnə işləri ilə tamaşaçılarını sevindirməyə nail oldu. Cəmilə xanımın əməyi diqqətdən yayınmadı və o, 2000-ci ildə “Əməkdar artist” fəxri adına layiq görüldü. 67 yaşında doğma səhnəsindən enən Cəmilə xanım indi xatirələri ilə ovundurur özünü. “Teatr mənim həvəsim, nəfəsimdi. Elə bilirəm teatrdan çıxandan qocalmışam. Tərəf-müqabillərim də artıq yoxdur. Elə bilirəm dünya boşalıb onların gedişi ilə”, – deyən Cəmilə xanımla söhbətə nikbin notla nöqtə qoymaq üçün “Əsl aktyor necə olmalıdır” sualını verdim.



Və mənə elə gəldi ki, məhz bu sualı eşitmək istəyir. Yanılmamışdım: “Aktyor nümunə olmalıdır: səhnədə də, həyatda da. Hə, bir də adilikdən qaçmalıdır. Siz buna əlçatmazlıq desəniz də, mən seçilmək deyirəm. Özü də bu xudbinliklə yox, sadəlik, səmimilik, mehribanlıq və peşəkarlıqda, əsas da sənətə sevgidə olmalıdır”.

Aktrisa haqlıdır. Bəlkə elə ömrü boyu bu sadə həqiqətlərlə yaşadığına görə məsuddur. Keçilən yol nə qədər ağır və məhrumiyyətli olsa da, şərəflidir, əzizdir, arzulanandır. Belə olmasaydı, nənənin sevgi ilə başladığı yolu nəvəsi də keçməzdi. Bəli, bu gün Ağdam teatrının səhnəsində Cəmilə xanımın sənət yolunu aktyor nəvəsi Anar Əhmədov davam etdirir. Deməli, o həm də sənət sevgisini nəvəsinə ötürə bilib. Nə yaxşı...

**Həmidə Nizamiqızı**

## DİM konsertmeysterləri əməkdaşlığa dəvət edir

Dövlət İmtahan Mərkəzi (DİM) musiqi sənəti istiqaməti üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən konsertmeysterləri əməkdaşlığa dəvət edir.

DİM-dən bildirilib ki, musiqi sənəti istiqaməti üzrə qabiliyyət imtahanları zamanı abituriyentlər orkestr alətləri, xalq çalğı alətləri, vokal sənəti, dirijorluq, xanəndəlik və populyar musiqi və caz ifaçılığı ixtisasları üzrə imtahanlarda konsertmeysterlərin müşayiəti ilə ifa nümayiş edirlər.

Konsertmeysteri olmayan abituriyentlərin imtahanda ifasını təmin etmək üçün DİM imtahanlara növbətçi konsertmeysterlər dəvət edir. Qeyd olunan ixtisaslar üzrə konsertmeyster kimi fəaliyyət göstərən alitəhsilli şəxslər əməkdaşlıq etmək üçün DİM-ə müraciət edə bilərlər.

Namizədlərin musiqi sahəsi üzrə ali təhsili, konsertmeyster kimi ən azı 5 illik iş təcrübəsi, notu yüksək səviyyədə üzdən oxumaq bacarığı olmalıdır. Tar və kamança cütlüyünü müşayiət edən konsertmeysterlər muğamları, dəsgahları, təsnifləri, rəngləri, xalq mahnılarını, bəstəkar mahnılarını bilməlidir.

Qeydiyyatdan keçən namizədlər müsahibəyə dəvət olunacaqlar. Müsahibədən keçən konsertmeysterlərlə 5 illik xidməti müqavilə bağlanılacaq.

Ətraflı məlumat DİM-in saytında.

## Yükümüz sənətdir – “Karvan” art qrupu




İncəsənət, insan ruhuna dərindən təsir edən güc, bəzən bizi sorğulayan vicdanımızın cavabı, səssiz düşüncələrimizin görüntüsü, yaradıcı insanın beyni, qəlbi və əllərinin birgə işinin ifadəsidir. Lev Tolstoyun fikridir: ”Sənət düşünə bilən, gerçəkləri görə bilən, cəmiyyəti anlaya bilən insanların işidir”. Belə insanların, yaradıcı şəxslərin, o cümlədən də rəssamların özünəməxsus birlik və qrupları olur. Azərbaycanda da rəssamları bir araya gətirən müxtəlif sənət qrupları var. Onların yaranması yaradıcı insanların müəyyən ideya, düşüncə, missiya ətrafında birləşmək və yaradıcı fəaliyyət göstərmək niyyətindən irəli gəlir.

2022-ci ildə rəssam Cavid Məmmədovun təşəbbüsü ilə yaranan “Karvan” art qrupunun da əsas məqsədi incəsənət sahəsində fərqli yaradıcılıq üslubu və tərzində işləyən, lakin müəyyən mövzu, ideya ətrafında birləşmək, fikir və təcrübə mübadilələri aparmaq, insanların bədii zövqünə təsir etməklə cəmiyyətə pozitiv enerji impulslarını ötürmək niyyətində olan düşüncə sahiblərini bir araya gətirməkdir. Onlar düşünürlər ki, tək əldən səs çıxmaz. Birlikdə yeni mövzuların üzərində çalışaraq, yüksək bədii keyfiyyətə malik sənət əsərləri ortaya qoymaq lazımdır. Qrup xüsusilə rəşadətli Azərbaycan Ordusunun tarixi Zəfəri sayəsində işğaldan azad edilən yurd yerlərimizin təbii gözəlliklərini, mədəni sərvətlərini, etnoqrafik xüsusiyyətlərini kətan üzərinə köçürməyi əsas prioritet kimi müəyyən edib.

Niyə məhz “Karvan”? Qrupun təşəbbüskarının da dediyi kimi, “bizim yükümüz sənət, yolumuz Azərbaycan incəsənətini və tarixini dünyaya çatdırmaq yoludur”. Üslub, tərz və texnika baxımından bir-birindən fərqlənən rəssamlar bu yolda gedə bildikləri qədər irəli gedəcəklər.

“Karvan” art qrupu hazırda Azərbaycanda və xaricdə tanınan, həyatdakı gerçəklikləri öz xəyal gücü ilə birləşdirməyə çalışan, özünəməxsus texnikası, tərzi, gözəllik idealları ilə sənət əsərlərini ortaya qoymaq istəyən və əksəriyyəti Azərbaycan Rəssamlar İttifaqının üzvü olan 13 yaradıcı şəxsi bir araya gətirib.

Qrupun təşəbbüskarı və ideya müəllifi Cavid Məmmədov 2007-ci ildə Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinin Rəngkarlıq fakültəsini bitirib. Respublika və beynəlxalq miqyaslı sərgilərin, simpoziumların iştirakçısıdır.

Üzvlərimizdən Ülviyyə Həmzəyeva tanınmış fırça ustası, Əməkdar rəssam, Milli Məclisin deputatıdır. Günel Ravilova respublika və beynəlxalq sərgilərin iştirakçısı, Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Aynurə Mustafayeva əvvəlcə ali tibb təhsili alsa da, sonra Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirib. Bundan əlavə, rəssamlar İntiqam Ağayev, Hüseyn Kəngərli, Ülvi Yadigarlı, Murad  Zeynalov, rəssam-dizaynerlər Nigar Familsoy, İlqar Tahiri, rəssam-heykəltəraş Məhərrəm Əliyev, ADRA-nın tələbəsi Vüsalə Şərifova, bir çox sərgi və simpoziumların iştirakçısı Rauf Şamilzadə də “Karvan”a qoşulub. Qrupun kuratoru isə bu sətirlərin müəllifidir.

Sözsüz ki, gələcəkdə yaradıcılıq məramlarını bu qrupla birgə görmək istəyənlər sayəsində sıralarımız daha da genişlənəcək. Sənət yükü ilə yola çıxan hər kəsə uğurlar arzu edirik.

**Xanım Rzayeva**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı**

## Xatirə təqvimi — 11-14 fevral

### Azərbaycan

**11 fevral 1914** – Xalq artisti Rəmziyyə Osman qızı Veysəlova (1914 – 23.8.1993) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrının aktrisası olub.

**11 fevral 1920** – Ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü Əziz Mirfeyzulla oğlu Mirəhmədov (1920-2003) Bakıda anadan olub.

**11 fevral 1929** – Tarixçi alim, Əməkdar elm xadimi, akademik Tofiq Qasım oğlu Köçərli (1929 – 31.10.2007) anadan olub.

**11 fevral 1930** – Mədəniyyət xadimi, Prezident təqaüdçüsü Gülara Cəfər qızı Cabbarlı (1930-2018) Bakıda anadan olub. C.Cabbarlının Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**11 fevral 1950** – Tanınmış pianoçu, bəstəkar Cahangir Mürsəl oğlu Qarayev (1950 – 15.1.2013) Bakıda anadan olub. Bakı Musiqi Akademiyasında dərs deyib.

**11 fevral 1981** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Möhsün Sənani (Möhsün Sadıq oğlu Cəfərov; 19.6.1900 - 1981) vəfat edib.

**11 fevral 2012** – Xalq artisti, tanınmış bəstəkar, Elza İmaməddin qızı İbrahimova (10.1.1938 – 2012) vəfat edib. Populyar mahnıların müəllifidir.

**11 fevral 2015** – Prezident İlham Əliyev görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Vasif Adıgözəlovun 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**12 fevral 1911** – Məşhur tarzən, Xalq artisti Bəhram Məşədi Süleyman bəy oğlu Mənsurov (1911 – 14.5.1985) Bakıda doğulub. 1932-ci ildən Dövlət Opera və Balet Teatrının solisti və konsertmeysteri olub.

**12 fevral 1912** – Memar, AMEA-nın müxbir üzvü Ənvər Əli oğlu Qasımzadə (1912 – 12.3.1969) anadan olub.

**12 fevral 1921** – Məşhur aktyor Əbülhəsən Anaplı (Məmmədov; 1894, Quba – 1921) vəfat edib. Hacıbəyli qardaşlarının teatr truppasının aparıcı artistlərindən olub.

**12 fevral 1923** – Şair, dramaturq İslam Əhməd oğlu Səfərli (1923 – 6.11.1974) Naxçıvan Muxtar Respublikası Babək rayonunun Şəkərabad kəndində doğulub. “Göz həkimi”, “Ana ürəyi”, “Yolayrıcı” və s. pyeslərin müəllifidir. Şeirlərinə mahnılar bəstələnib.

**12 fevral 1925** – Filosof, Əməkdar elm xadimi, professor Adil Yusif oğlu Nəcəfov (1925-1989) anadan olub.

**12 fevral 1933** – Əməkdar rəssam, heykəltəraş Elmira Mehralı qızı Hüseynova (1933 – 23.1.1995) anadan olub. Həsən bəy Zərdabi (Bakı), Cəfər Cabbarlı (Sumqayıt) və başqa görkəmli şəxslərin abidələrinin müəllifidir.

**12 fevral 1933** – Xanəndə, Əməkdar artist Mais Qurban oğlu Salmanov (1933 – 25.7.2008) Şəmkir rayonunun Morul kəndində doğulub. Opera və Balet Teatrının solisti olub.

**12 fevral 2014** – Prezident İlham Əliyev böyük maarifçi, tarixçi alim, şair Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**13 fevral 1898** – Xalq artisti Viktor Petroviç Şarlaxov (1898-1989) anadan olub. Dövlət Rus Dram Teatrının aktyoru (1938-1953) olub, Dövlət mükafatına layiq görülüb.

**13 fevral 1910** – Ədəbiyyatşünas alim, professor Nəzakət Həsən qızı Ağazadə (1910-1979) anadan olub. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədr müavini Həsən bəy Ağayevin qızıdır.

**13 fevral 1927** – Xalq artisti Roza Heydər qızı Cəfərxanova (1927 – 18.5.2010) Naxçıvan MR Ordubad rayonunda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası olub.

**13 fevral 1946** – Xalq artisti Əliabbas Gülabbas oğlu Qədirov (1946 – 8.3.2006) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, teatra rəhbərlik (2002-2006) edib. Kinoda (“Qızıl uçurum”, “Nəğmə dərsi”, “Küçələrə su səpmişəm” və s.) yaddaqalan obrazlar yaradıb, Dövlət mükafatına (“Sevinc buxtası” – Nazim, 1978) layiq görülüb.

**13 fevral 1948** – Xalq artisti, xanəndə Sabir Məhərrəm oğlu Əliyev (1948 – 22.12.2020) Cəlilabad rayonunda anadan olub. 1968-ci ildən Akademik Opera və Balet Teatrında solist-vokalçı kimi çalışıb.

**13 fevral 1952** – Tanınmış aktyor Şahmar Qərib oğlu Qəribli (1952-2018) anadan olub. H.Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında çalışıb, filmlərdə çəkilib, tamaşalara quruluş verib.

**13 fevral 2009** – Xalq şairi, dramaturq, ədəbiyyatşünas, akademik, Dövlət mükafatları laureatı  Bəxtiyar Mahmud oğlu Vahabzadə (16.8.1925 – 2009) vəfat edib. 20-dək poemanın, 10 dram əsərinin (“Vicdan”, “Yollara iz düşür”, “Özümüzü kəsən qılınc” və s.) müəllifidir.

**13 fevral 2014** – Prezident İlham Əliyev milli teatr və kino sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Lütfəli Abdullayevin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**13 fevral 2022** – Əməkdar incəsənət xadimi, yazıçı-jurnalist Əfqan (Hacıağa oğlu Əsgərov; 23.9.1929 – 2022) vəfat edib. “Qartal əfsanəsi” romanı, “Dədə Bəhmən” trilogiyası və s. əsərlərin müəllifidir.

**14 fevral 1918** – Memarlıq doktoru, Dövlət mükafatı laureatı Davud Ağa oğlu Axundov (1918 – 19.11.2003) anadan olub. Qafqaz Albaniyası dövründə Azərbaycan memarlığının tarixinə dair əsərlərin müəllifidir.

**14 fevral 1925** – Xalq artisti, dirijor, Dövlət mükafatı laureatı Nazim Əsədulla oğlu Rzayev (1925 – 2.5.2006) anadan olub. Azərbaycan Dövlət Kamera Orkestrinin bədii rəhbəri olub, Türkiyədə çalışıb.

**14 fevral 1939** – Əməkdar artist, tanınmış xanəndə Süleyman Cümşüd oğlu Abdullayev (1939 – 23.10.2022) Füzuli rayonunun Qoçəhmədli kəndində anadan olub.

**14 fevral 1940** – Azərbaycan Televiziyasının ilk diktorlarından Tamara Cəfər qızı Gözəlova-Ağamirova (1940 – 8.5.2020) Bakıda anadan olub. “O olmasın, bu olsun” filmində Gülnaz roluna çəkilib. Milli Kitabxanada çalışıb.

**14 fevral 1945** – Yazıçı-publisist, şair İntiqam Alı oğlu Mehdizadə (1945 – 8.6.2022) İsmayıllı şəhərində doğulub. Azərbaycan Radiosunda “Bulaq”, “Dan yeri” və s. verilişlərin redaktoru olub.

**14 fevral 1980** – Görkəmli aktyor, rejissor, Xalq artisti Rza Təhmasib (20.4.1894 – 1980) vəfat edib. “Bakıda küləklər əsir”, “Qanun naminə” və s. filmlərdə çəkilib, “Onu bağışlamaq olarmı?” filminin rejissorudur. Azərbaycan Teatr Cəmiyyətinin sədri olub.

**14 fevral 2013** – Prezident İlham Əliyev görkəmli ədəbiyyatşünas, maarifpərvər,  yazıçı-publisist Firidun bəy Köçərlinin 150 illik yubileyi haqqında sərəncam imzalayıb.

**14 fevral 2020** – Prezident İlham Əliyev Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

### Dünya

**11 fevral 1900** – Alman filosofu Hans-Georq Qadamer (Hans-Georg Gadamer; 1900-2002) anadan olub.

**12 fevral 1865** – Polyak şairi, yazıçı və dramaturq Kazimej Pşerva-Tetmayer (1865-1940) anadan olub.

**12 fevral 1881** – Məşhur  balerina, SSRİ Xalq artisti Anna Pavlovna Pavlova (1881-1931) anadan olub.

**13 fevral 1873** – Rus opera müğənnisi Fyodor İvanoviç Şalyapin (1873-1938) anadan olub. 1921-ci ildə mühacirətə gedib, Parisdə vəfat edib.

**13 fevral 1883** – Rus aktyoru və rejissoru, teatr xadimi Yevgeni Baqrationoviç Vaxtanqov (1883-1922) Vladiqafqazda doğulub.

**13 fevral 1903** – Detektiv romanlar müəllifi, Belçika əsilli fransız yazıçısı Jorj Simenon (Georges Joseph Christian Simenon; 1903-1989) anadan olub.

**14 fevral 1914** – İtalyan kinorejissoru, ssenarist Pyetro Cermi (Pietro Germi; 1914-1974) anadan olub. “İtalyansayağı boşanma” filminə görə “Oskar” mükafatı (1963) alıb.

**14 fevral 1944** - İngilis rejissoru və ssenaristi Alan Parker (Alan William Parker; 1944 –31.7.2020) anadan olub. “Gecəyarısı ekspessi”, “Mələk ürəyi” filmlərini çəkib, Kann kinofestivalının qalibi olub.

**Hazırladı: V.Orxan**

№11 (1980)
10 fevral 2023
www.medeniyyet.az

# Beynəlxalq birlik Türkiyə və Suriyaya yardım üçün səfərbər olmalıdır

## Avropa İttifaqı hər iki ölkəyə kömək məqsədilə donor konfransı təşkil edəcək

6 fevralda Türkiyənin cənub-şərqində və Suriyanın şimalında böyük dağıntı və təlafat doğuran, fəsadlarına görə son yüz ilin ən ağır təbii fəlakətlərindən sayılan 7,7 və 7,6 bal gücündə zəlzələlər dünyada geniş rezonans doğurub. Zəlzələ fəlakətindən, əslində, heç bir ölkənin sığortalanmadığı gerçəyi bir daha təsdiq olunub. Dünyanın bir çox yerlərindən zəlzələnin vurduğu hər iki ölkəyə yardım gəlməkdədir. O cümlədən Türkiyənin son zamanlar siyasi münasibətlərinin elə də yaxşı olmadığı Yunanıstan, Fransa kimi ölkələr də xilasedici qrup, tibbi heyət və s. göndərib.

Qeyd edək ki, fevralın 9-na olan məlumata görə, Türkiyədə zəlzələnin dağıntıları altından çıxarılan ölü sayı 17 mini ötüb, 70 mindən çox yaralı var. Suriyada bu göstəricilər müvafiq olaraq 3 minə və 20 minə yaxındır. Qarşıdakı günlərdə hər iki ölkədə bu rəqəmlər, təəssüf ki, artacaq.

Mövcud vəziyyətin humanitar fəlakətə çevrilməməsi üçün beynəlxalq təşkilatların da səfərbər olması zəruridir.

Bu xüsusda ilk təşəbbüs Avropa İttifaqından (Aİ) gəlib. Təşkilat Türkiyə və Suriyada zəlzələdən zərərçəkənlərə kömək üçün donor konfransı təşkil edəcək.

Aİ Komissiyasından verilən açıqlamada bildirilir ki, Türkiyə və Suriyada zəlzələdən zərər çəkənlərə beynəlxalq ictimaiyyətin maliyyə yardımını səfərbər etmək məqsədi daşıyan konfransın martın əvvəlində Brüsseldə keçirilməsi planlaşdırılır. Qeyd edilib ki, yüksək səviyyəli konfrans Aİ-yə üzv ölkələrlə yanaşı, qonşu dövlətlər, BMT-yə üzv ölkələr, beynəlxalq maliyyə institutları və digər qurumlar üçün açıq olacaq.



Aİ Suriyanın müraciəti ilə bu ölkəyə təcili 3,5 milyon avro maliyyə tutarı olan yardım (axtarış-xilasetmə qrupları, sığınacaq və dərmanlar) göndərəcəyini də açıqlayıb.

Aİ Fövqəladə Hallara Cavab Koordinasiya Mərkəzi hər iki ölkəyə yardımları dərhal yönləndirmək üçün üzv ölkələrlə daimi əlaqə saxladığını diqqətə çatdırıb.

Hazırda Türkiyəyə 60-dan çox ölkədən yardım göndərildiyi bildirilir.

Rusiya fevralın 8-də Türkiyəyə əlavə olaraq 50 xilasedici və 11 mütəxəssisdən ibarət həkim briqadası göndərib. Bundan öncə qonşu ölkə Türkiyənin Kahramanmaraş bölgəsinə 100 xilasedici, Adananın İskenderun limanında zəlzələdən sonra başlanan yanğını söndürmək üçün "Be-200" amfibiya təyyarəsi göndərmişdi. Qeyd edək ki, İskenderun limanında yanğın fevralın 8-də axşama doğru söndürülüb.

Bosniya və Herseqovina Nazirlər Şurası zəlzələlərdən zərər çəkənlərə yardım məqsədilə Türkiyəyə təxminən 500 min avro məbləğində vəsait ayırıb.



Ölkədəki xeyriyyə cəmiyyətləri də həm Türkiyədə, həm də Suriyada zəlzələdən zərər çəkənlərə yardım toplayır. Ümumilikdə 300 min avrodan çox vəsait toplanıldığı bildirilib. Bosniya və Herseqovinadan daha 64 nəferlik xilasetmə qrupu Türkiyədədir. Serbiya və Monteneqroda dərnəklərin təşkil etdiyi yardım kampaniyaları çərçivəsində zəlzələdən zərər çəkənlər üçün geyim və digər əşyalar toplanılır.

Bu arada Dünya Səhiyyə Təşkilatı (DST) Türkiyənin cənub-şərqi və Suriyadakı güclü zəlzələ ilə əlaqədar təcili tibbi yardım qrupları şəbəkəsini aktivləşdirib. DST-nin rəhbəri Tedros Qebreyesus bildirib ki, təşkilat Dubaydakı logistika mərkəzindən tibbi ləvazimatlar, o cümlədən əsas cərrahi dəstlər ilə birlikdə hər iki ölkəyə üç çarter reysi göndərib. DST güclü zəlzələnin dağıntı və uzunmüddətli fəsadlarının hər iki ölkədə ümumilikdə 23 milyon insanın həyatına təsir göstərəcəyini bildirib və regionda ən yüksək – üçüncü dərəcəli fövqəladə vəziyyət elan edib.

BMT rəsmiləri yaxın günlərdə Türkiyənin və Suriyanın zəlzələ bölgələrinə səfər edəcəklər. Verilən məlumata görə, baş katibi Antonio Quterreş zəlzələdən zərər çəkmiş ölkələrin rəhbərləri ilə əlaqə saxlayıb və təşkilatın fövqəladə hallar qruplarının bölgəyə səfərbər olunduğunu bildirib.

# "Walt Disney" 7 min işçini ixtisar edəcək

## 5,5 milyard dollara qənaət etməyi planlaşdırır...




Amerikanın kino və əyləncə sənayesinin nəhənglərindən olan "Walt Disney" şirkəti 7 min işçini ixtisar etmək qərarına gəlib. Bu barədə şirkətin baş direktoru Robert İger bildirib.

Baş direktorun sözlərinə görə, şirkət yenidən təşkil ediləcək. Yenilənmiş şirkətdə üç bölmə yaradılacaq. Onlardan birincisi kino və televiziya, ikincisi idman proqramlarına, üçüncüsü isə əyləncə parklarına və mallara cavabdeh olacaq.

Bununla "Walt Disney" təxminən 5,5 milyard dollara qənaət etməyi planlaşdırır. Şirkətin baş direktoru qeyd edib ki, ixtisarı gözlənilən 7 min nəfər şirkətin ümumi işçi sayının təxminən 3 faizini təşkil edir.

# Leypsiq kitab yarmarkası üçillik fasilədən sonra qapılarını açacaq



Leypsiq kitab yarmarkası Almaniyada böyüklüyünə görə Frankfurt kitab yarmarkasından sonra ikinci yerdədir. Ənənəvi sərgi hər il dörd gün davam edir. Pandemiya ilə bağlı üç il aradan sonra Leypsiq yarmarkası yenidən qapılarını bütün kitabsevərlərə açacaq.

Bu il sərgi aprelin 27-dən 30-dək keçiriləcək. Leypsiq yarmarkasının direktoru Oliver Sille ən azı 130 min ziyarətçi gözlədiklərini bildirib. Pandemiyadan öncəki 2019-cu ildə yarmarkanı 216 min nəfər ziyarət edib. Sille vurğulayıb ki, belə uzun fasilədən sonra əvvəlki səviyyəyə qayıtmaq üçün vaxt tələb olunur. Əgər böhranaqədərki göstəricinin 60 faizini əldə etsək, bu, şübhəsiz, uğur olacaq.

Təşkilatçılar 2019-cu illə müqayisədə təqribən 75 faiz eksponentdən iştirak üçün müraciət alıblar. Yarmarka çərçivəsində həm sərgi ərazisində, həm də şəhərin özündə çoxsaylı müxtəlif tədbirlərin keçirilməsi planlaşdırılır. Bundan başqa, 200 qiraət zalı açılacaq.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda bayraqlar yarıya endirilib

Türkiyənin cənub-şərqində baş vermiş şiddətli zəlzələlərlə əlaqədar qardaş ölkədə elan olunmuş yeddigünlük milli yas səbəbilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun Bakıdakı qərargahında da üzv və müşahidəçi dövlətlərin bayraqları yarıya endirilib.



Fond tərəfindən bununla təşkilatın qurucu üzv ölkəsi Türkiyəyə və qardaş türk xalqına həmrəylik mesajı verilib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu fevralın 6-da baş verən təbii fəlakətdən sonra bəyanat yayaraq Türkiyəyə başsağlığı verib. "Can Türkiyəmizdə güclü zəlzələnin baş verməsi xəbərini böyük sarsıntı ilə qarşıladıq. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu bu kədərli gündə Türkiyənin yanında olduğunu bildirir, fəlakət nəticəsində həyatını itirənlərə Allahdan rəhmət, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılara tezliklə şəfa diləyir", – deyə bəyanatda bildirilir.

# UNESCO zəlzələnin mədəni irsə vurduğu ziyanı qiymətləndirəcək



UNESCO mütəxəssisləri Suriya və Türkiyədə baş vermiş zəlzələlərdən sonra zərər çəkmiş irs obyektlərinə dəyən ziyanı qiymətləndirəcək.

Bu barədə açıqlama verən təşkilatın mətbuat üzrə nümayəndəsi Tom Mallar bildirib ki, UNESCO bu ərazilərin operativ şəkildə qorunması məqsədilə dəqiq zərərin qiymətləndirilməsini tərtib etmək üçün ICOMOS (Abidələr və Tarixi Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şura) kimi tərəfdaşları ilə birlikdə ekspertlərini cəlb edəcək.

Xatırladaq ki, zəlzələ nəticəsində UNESCO-nun Dünya İrsi Siyahısına daxil olan Diyarbəkir qala divarları (Türkiyə) və Hələb qalası (Suriya) da zərər görüb.

# Papa Fransisk hər kəsi Türkiyə və Suriya ilə həmrəy olmağa çağırıb

Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransisk şiddətli zəlzələ nəticəsində çoxlu sayda insan tələfatı ilə bağlı hər kəsi Türkiyə və Suriya xalqları ilə həmrəylik nümayiş etdirməyə çağırıb.

Papa Fransisk hazırda fikirlərinin minlərlə insanın ölümünə və yaralanmasına səbəb olan zəlzələdən ciddi şəkildə təsirlənən Türkiyə və Suriya xalqları ilə olduğunu bildirib.

"Onlar üçün güclü hisslərlə dua edirəm. Bu dağıdıcı fəlakətdən əziyyət çəkən bütün insanlara və xalqlara öz yaxınlığımı bildirmək istəyirəm. Qardaş və bacılarımızın bu faciə qarşısında irəliləyə bilmələri üçün birlikdə dua edək", – deyə Roma Papası vurğulayıb.

Papa Fransisk zəlzələ bölgələrində bu çətin şəraitdə həyat xilas etməyə çalışanlara da təşəkkür edib və onlar üçün dua etməyi xahiş edib.

# Yunan nəşri: "Hamımız türkük..."

Yunanıstanın "Kathimerini" gündəlik qəzeti öz saytında və sosial şəbəkələrdəki hesablarında Türkiyə xalqını dəstəkləyən rəsm dərc edib. Rəsmin müəllifi Dimitris Hadzapulos binanın fasadında "Biz hamımız türkük" yazan gənci təsvir edib.




Bu rəsm fransız satirik jurnalı "Charlie Hebdo"nun Türkiyədəki zəlzələdən sonra yayımladığı qalmaqallı karikaturaya özünəməxsus cavab olub.




Xatırladaq ki, türklərə və ümumilikdə müsəlmanlara qarşı düşmənçiliyi ilə fərqlənən "Charlie Hebdo" jurnalının "Twitter" hesabında Türkiyədə dağılmış binaları və aşmış avtomobilləri təsvir edən karikatura dərc edilib. Təxribatçı karikaturanın altında istehza ilə "Hətta tanklar da lazım deyil" sözləri yazılıb.




## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 298 il əvvəl...

**11 fevral 1725-ci ildə** Rusiya Xarici İşlər Kollegiyası işğal olunmuş Xəzərətrafı ərazilərdə erməni əhalisinin yerləşdirilməsi barədə fərman verib. Bundan üç gün əvvəl (8 fevral) ölən çar I Pyotr sələflərinə ermənilər vasitəsilə Cənubi Qafqazda möhkəmlənməyi vəsiyyət etmişdi.

### 194 il əvvəl...



**11 fevral 1829-cu ildə** Rusiyanın Tehrandakı səfiri, şair Aleksandr Qriboyedov səfirliyə basqın edən bir qrup dindar tərəfindən qətlə yetirilib. Bunun guya Tehrandakı bir erməni xanımın fars ərindən qaçaraq səfirliyə sığındığı bəhanəsi ilə bu basqını törətmişdilər. Qriboyedovun qətli Rusiya ilə İran arasındakı Türkmənçay müqaviləsinin birinci ildönümünə təsadüf etmişdi. Hadisədən sonra İran şahı Rusiya ilə münasibətləri sahmanlamaq üçün Peterburqa böyük miqdarda qızıl və daş-qaş göndərdi.

### 78 il əvvəl...

**13 fevral 1945-ci ildə** II Dünya müharibəsində ən böyük bombardmanlardan biri baş verib. ABŞ-Britaniya hərbi aviasiyasının Drezden şəhərini bombalaması nəticəsində 100 mindən çox adam ölüb, 30 mindən çox bina, o cümlədən yüzlərlə tarixi abidə dağıdılıb. Müharibənin taleyinin həll olunduğu bir vaxtda hərbi nöqteyi-nəzərdən strateji əhəmiyyət daşımayan şəhərdə belə bir əməliyyata ehtiyac yox idi. Britaniya bununla 1940-cı ildə almanların Londonu bombalamasının əvəzini çıxırdı.

### 67 il əvvəl...



**14 fevral 1956-cı ildə** Azərbaycan Televiziyası (Bakı Televiziya Studiyası) fəaliyyətə başlayıb. Studiya əvvəlcə həftədə 3 dəfə, 1957-ci ildən isə 5 dəfə 2 saatlıq proqramla efirə çıxırdı. 1962-ci ildə gündəlik efirə çıxan proqramların həcmi 7 saatadək artırıldı. 70-ci illərdə gündəlik verilişlərin yayım həcmi 10, 80-ci illərdə 18 saata çatdırıldı. 2005-ci ildən 24 saatlıq fasiləsiz yayıma keçilib.

### 64 il əvvəl...

**11 fevral 1959-cu ildə** Türkiyə ilə Yunanıstan arasında Kipr adası ilə bağlı Sürix-London müqavilələri imzalanıb. Daha sonra Britaniyanın (Kiprin faktiki metropoliyası), habelə adanın yunan və türk icmalarının da imzaladığı sazişlərə əsasən, 1960-cı ildə Kiprdə iki icmanın birgə dövləti yarandı. Amma ideya az sonra iflasa uğradı və adada hərbi münaqişə başladı.

### 31 il əvvəl...

**11 fevral 1992-ci ildə** erməni silahlı qüvvələri Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərini işğal edib. 28 il erməni işğalı altında qalan kəndlər İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanan 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanata uyğun olaraq, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarətinə keçib.

**13 fevral 1992-ci ildə** Dağlıq Qarabağ münaqişəsi ilə bağlı regiona ATƏT-in (o vaxt ATƏM adlanırdı) ilk missiyasının səfəri başlayıb. Təşkilata sədrlik edən Çexoslovakiya (1993-cü ildə Çexiya və Slovakiyaya bölündü) Prezidenti Administrasiyasının rəhbəri Karel fon Şvartsenberqin başçılıq etdiyi heyət bir həftə ərzində Bakı, Yerevan və Xankəndidə olmuşdu. Həmin ilin 24 martında ATƏT-in Minsk qrupu yarandı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5048. **Sifariş:** 399
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641